№43 (1038) 25-31 oktyabr 2018-ci il

www.iqtisadiyyat.com

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

Türkiyə və Azərbaycan arasındakı dostluq və birlik dünya üçün nümunədir

Oktyabrın 19-da Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimi keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Bildirildi ki, "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton "Azeri Light" markalı neft çatdırılıb. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin, mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. "Star" neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. Zavod istehsala başladığı zaman 1100 nəfər yeni iş yeri ilə təmin olunacaq.

"Star" neft emalı zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod "Petkim" neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək.

Onu da deyək ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir. Bundan əlavə, "Star" neft emalı zavodu Türkiyədə özəl sektorun bir nöqtəyə qoyduğu ən böyük investisiya layihəsidir. Bu müəssisə Türkiyənin idxaldan asılılığını azaltmaqla ölkə iqtisadiyyatına 1,5 milyard dollar əlavə gəlir qazandıracaq.

Xatırladaq ki, "Star" neft emalı zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub.

"Star" neft emalı zavodunun açılış mərasiminin aparıcısı 6,3 milyard dollar dəyərində olan və bu gün reallaşan 4 nəhəng layihənin əhəmiyyəti haqqında ətraflı məlumat verdi. Sonra layihənin əhəmiyyəti haqqında videoçarx nümayiş olundu. SOCAR-ın prezidenti Rövnəq Abdullayev mərasimdə iştirak edən Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevə və Rəcəb Tayyib Ərdoğana layihənin həyata keçirilməsinə verdikləri dəstəyə görə təşəkkürünü bildirdi.

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz Türkiyə-Azərbaycan dostluğunun və işbirliyinin rəmzi olan bu hadisənin önəmindən danışaraq iki ölkə arasında qardaşlığın möhkəm bağlara əsaslandığını vurğuladı.

"Türkiyə və Azərbaycan birlikdə XXI əsrin enerji tarixini yazır", - deyən Fatih Dönməz Azərbaycanın müstəqilliyinin 27-ci ildönümü münasibətilə təbriklərini də çatdırdı. Türkiyənin xəzinə və maliyyə naziri Berat Albayrak TANAP layihəsinin açılışından 4 ay sonra dünyaya örnək olacaq daha bir önəmli layihənin açılışına toplaşdıqlarını qeyd edərək, Türkiyə və Azərbaycan arasındakı dostluğu və birliyi dünya üçün nümunə adlandırdı.

Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım iki ölkənin ağıl, iradə və güc birliyi ilə reallaşan layihənin icrası münasibətilə təbriklərini çatdırdı, Türkiyə-Azərbaycan işbirliyinin əbədi olacağını vurğulayaraq dedi:

-Türkiyə-Azərbaycan münasibətlərini əbədiyyətə daşıyacaq bu qəbildən ortaq layihələrimizlə qürur duyuruq. Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, TANAP, "Star" neft emalı zavodu və buna bənzər böyük olduğu qədər də strateji əhəmiyyət daşıyan bu layihələr təkcə Azərbaycan-Türkiyə qardaşlığını inkişaf etdirmir, eyni zamanda, bütün Qafqazın, Orta Asiyanın və hətta Avropanın enerji təhlükəsizliyinə də böyük töhfə verir. O, ölkələrimiz arasında 1991-ci ildən etibarən 200-dən çox müqavilə, protokol və digər sənədlər imzalandığını diqqətə çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi:

-Bu gün Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin tarixində çox gözəl və əlamətdar bir gündür. Biz "Star Rafineri"nin açılışına toplaşmışıq. Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada "Star"ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır.

Mən yenidən qardaş Türkiyə torpağında olmağımdan çox məmnunam. Deməliyəm ki, bu il bu səfər mənim Türkiyəyə üçüncü səfərimdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bu il Azərbaycana iki dəfə səfər etmişdir. Bu səfərlərin sayı özlüyündə bir göstəricidir və onu göstərir ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu da təbiidir, çünki əsrlər boyu biz birlikdə yaşamışıq, bir yerdə olmuşuq. Tarixin bəzi məqamları bizi bir-birimizdən ayırıb, amma bu, müvəqqəti xarakter daşıyırdı. Biz yüz il bundan əvvəl birlikdə idik, ondan əvvəlki dövrdə də birlikdə idik, bu gün də bir yerdəyik.

Mən qeyd etməliyəm ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla Bakıda ötən ay keçirilmiş möhtəşəm hərbi paradda iştirak etdik. Bu hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Bakının ən böyük meydanı olan Azadlıq meydanından şərəflə keçmişlər. 1918-ci ilin 15 sentyabrı tarixi bir gündür. Məhz o gündə Bakı şəhəri Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaradılmış Azərbaycan Milli Ordusu tərəfindən işğaldan azad edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində Cümhuriyyət yaranmışdır. Ancaq Bakı, bizim qədim tarixi şəhərimiz işğal altında idi. Yeni yaradılmış hökumət Gəncə şəhərində fəaliyyət göstərirdi. Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Gəncədən Bakıya möhtəşəm yürüşü və hərbi zəfəri nəticəsində Bakı işğalçılardan azad edildi və öz sahibinə, Azərbaycan xalqına qaytarıldı. O gündən bir neçə gün sonra Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilmişdir. Bu, unudulmaz tarixdir və yüz il o tarixdən sonra Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda təşkil edilmiş möhtəşəm mərasim bizim birliyimizi bir daha göstərdi. Göstərdi ki, bizim birliyimiz sarsılmazdır, bizim birliyimiz əbədidir, yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də bir yerdəyik.

Onu da qeyd etməliyəm ki, dünən biz Azərbaycanda müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd etdik. Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olmuşdur. Bu tarix çox şərəfli tarixdir. O gündən bu günə qədər biz daim bir yerdəyik. Siyasi əlaqələrimiz ən yüksək zirvəyə qalxmışdır. İqtisadi sahədə çox böyük işlər görmüşük. Həm Türkiyə, həm Azərbaycan iqtisadi baxımdan sürətlə inkişaf edən ölkələrdir. Fürsətdən istifadə edərək, qardaş türk xalqını əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş bütün uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Türkiyə Prezident Ərdoğanın liderliyi sayəsində dünya miqyasında böyük gücə çevrildi. Türkiyə dünya miqyasında söz sahibidir. Bölgədə və dünyada Türkiyə ilə hesablaşırlar, Türkiyənin mövqeyi bir çox hallarda həlledici rol oynayır. Bu, bizi çox sevindirir. Çünki Türkiyənin gücü bizim gücümüzdür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycan və Türkiyə dünya miqyasında qardaşlıq, həmrəylik nümunəsi göstərirlər. Mən dünyada ikinci ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olsunlar. Bu, bizim böyük sərvətimizdir. Məhz bu dostluq, qardaşlıq duyğuları əsasında biz nəhəng layihələri gerçəkləşdiririk.

"Star Rafineri"nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda, biz digər önəmli layihələri birlikdə həyata keçirdik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun yaradılması – bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır. Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var. Bütün bunları biz birgə səylərlə etdik. Bütün bu layihələr böyük maliyyə yatırımı tələb edən layihələrdir. Burada artıq qeyd edildi ki, biz qardaş ölkələrin iqtisadiyyatına böyük sərmayə yatırmışıq. Təkcə Əliağaya qoyulan sərmayə 10 milyard dollara yaxındır və gələcəkdə bu rəqəm daha da artacaq.

Bir sözlə, bu gün "Star Rafineri"nin açılışı timsalında biz birliyimizin, həmrəyliyimizin, dostluğumuzun əlamətini görürük. Əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yalnız uğurlar yolu ilə gedəcək.

Mən bu fürsətdən istifadə edərək qardaş Türkiyə xalqına daim tərəqqi və rifah arzulayıram. Sağ olun.

* * *

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi:

- Çıxışımın əvvəlində Azərbaycanı 18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edirəm. Sovet İttifaqının dağılması ərəfəsində - 1991-ci il oktyabrın 18-də yenidən azadlığa qovuşan Azərbaycan dünəndən etibarən müstəqilliyinin 27-ci ilini geridə qoydu.

Əslində bugünkü Azərbaycan Türkiyə Respublikasının - bizim son dövlətimizin yaranması kimi qardaşlarımızın da ən gənc dövlətidir. Təxminən bir ay bundan əvvəl Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinin 100 illiyi tədbirləri ilə əlaqədar azərbaycanlı qardaşlarımızla bir yerdə idik.

Bakıda şanlı Türkiyə və Azərbaycan ordularının hərbi paradını qardaşlarımızla birlikdə həyəcan və qürurla izlədik. Türkiyə hərbi birlikləri azərbaycanlı qardaşları ilə keçmişdə necə çiyin-çiyinə vuruşmuşdularsa, həmin gün də eləcə çiyin-çiyinə addımladılar. Bu parad iki ölkə arasında əməkdaşlığın, iki dövlət, bir millət olmağımızın göstəricisi idi.

Bu gün "Star" neft emalı zavodunun açılışı ilə dünyaya örnək olan əlaqələrimizi bir addım da inkişaf etdiririk. Azərbaycan ilə əlaqələrimizi təkcə cəsarət, təkcə siyasət miqyasında deyil, güclü iqtisadi çərçivədə davam etdiririk. Bu müəssisə enerji sahəsində həmrəyliyimizi gücləndirmək üçün uzun müddət gördüyümüz işlərin ən mühüm və konkret örnəklərindən biridir. Daha əvvəl Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihələrini həyata keçirmişdik. Bu ilin iyununda hər biri xüsusi əhəmiyyətə malik bu strateji layihələrə regional və qlobal miqyasda nüfuza sahib olacaq TANAP-ı da əlavə etdik.

İndi açılışını etdiyimiz "Star" neft emalı zavodu ilə Azərbaycanla qardaşlıq əlaqələrimizin strateji miqyasını daha da gücləndirmiş oluruq. Türkiyə və Azərbaycanın liderliyi ilə həyata keçirdiyimiz hər bir layihə ölkələrimizin regional gücə çevrilmək qabiliyyətini qüvvətləndirməkdədir. Dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə bir-bir açılışını etdiyimiz bu layihələrin ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırdığına inanıram. Hər şeydən əvvəl 6,3 milyard dollarlıq bir sərmayə - "Star" neft emalı zavodu. Amma bundan başqa konteyner limanı, digər tərəfdən isə ilk açılışı ilə addımını atdığımız neft-kimya müəssisələri - bütün bunları ümumilikdə hesabladıqda söhbət təxminən 10 milyard dollarlıq sərmayədən gedir.

Hörmətli qonaqlar, 2008-ci ildən etibarən enerji sahəsində ölkəmizdə mühüm layihələr həyata keçirən Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR "Star" neft emalı zavodunu məhz bu rəqəmlə, bu sərmayə ilə ölkəmizə qazandırmışdır. Son 30 ildə həyata keçirilən ən böyük real sektor sərmayəsi olan "Star" neft emalı zavodu Avropa, Yaxın Şərq və Şimali Afrika bölgələrində ən böyük neft müəssisələrindən biri olaraq, inşallah, uğurla fəaliyyət göstərəcək.

Bu müəssisə ölkəmizin "Strateji sərmayələrin təşviqi sənədi"nə sahib ilk layihəsi olmaq xüsusiyyətinə də malikdir. Bundan başqa, belə bir investisiya olduqda bizim üzərimizə düşən bir vəzifə var, onlara xüsusi dəstək də verəcəyik. O dəstək də ondan ibarətdir ki, bundan sonra nazirlikdə bütün proseslərin həyata keçirilməsi şərti ilə prosedurlar zamanı bu təşviqdən də istifadə ediləcək. Çünki mərifət lütfkarlıqdan asılıdır. Lütfkarlıq olmasa mənası olmaz.

Eyni zamanda, bu neft emalı zavodu Türkiyənin ən böyük enerji layihəsidir. Bu baxımdan neft məhsulları idxalında hər il 1,5 milyard dollar məbləğində qənaət edilməsi, neft məhsullarında xaricdən asılılığın azalması hədəflənir. Gündə 214 min barrel, ildə 10 milyon ton xam neft emalı gücünə və 1,6 milyon kubmetr ehtiyat saxlama qabiliyyətinə malik zavodda dizel, nafta, təyyarə benzini və LPG kimi neft məhsullarının istehsalı həyata keçiriləcək.

Məşğulluq baxımından da mühüm əhəmiyyət daşıyan bu müəssisədə 1100 nəfər çalışacaq. Beləliklə, bu zavod Türkiyə və Azərbaycan iqtisadiyyatlarına mühüm fayda verməklə yanaşı, Egey bölgəmizin rifahını yüksəltmiş olacaq.

Biz iki dövlət, bir millət olaraq öz ölkələrimizlə yanaşı, bölgədəki bütün xalqların təhlükəsizliyi, sabitliyi, rifahı və zənginliyi üçün çalışırıq. Aralıq dənizinin şərq hissəsindəki karbohidrogen ehtiyatları ilə bağlı birtərəfli qaydada baş verən uğursuzluğa məhkum müxtəlif təşəbbüslərdən təəssüf edirik. Bu vəziyyət bölgəmizdə hələ də qeyri-sabitlikdən və gərginlikdən istifadə etmək siyasətindən əl çəkmək istəməyənlərin olduğunu göstərir. Türkiyə olaraq belə cəhdlərə qarşı cavabımızı həm bu yerdən, həm də diplomatik sahədə ən sərt şəkildə verməyi davam etdirəcəyik. Ölkəmizi və qardaşlarımızı nəzərə almayan heç bir təşəbbüsün uğur qazanmaq şansı olmadığını bütün tərəflər görəcəklər. Dostluğa, həmrəyliyə, birlikdə qazanmağa istiqamətlənmiş hər bir təklifə açıq olduğumuzu buradan bir daha bildirmək istəyirəm. Hamını əməkdaşlığa dəvət edirik.

Hörmətli qonaqlar, Türkiyə və Azərbaycanın bölgəmizin təhlükəsizliyinin və sabitliyinin əsas aktorları olduğu artıq hamı tərəfindən qəbul edilməyə başlanıb. Bu iki ölkənin qoşulmadığı, razı olmadığı və dəstək vermədiyi heç bir layihə hədəfinə çata bilməz. Bununla yanaşı, Azərbaycan torpaqlarının 20 faizinin əsrin dörddəbiri qədər işğal altında qalması qəbul edilə bilməz. Ölkəmizin və Azərbaycanın bu münaqişənin həlli istiqamətində göstərdiyi təşəbbüslərə beynəlxalq ictimaiyyət daha səssiz qala bilməz. BMT başda olmaqla regional və qlobal problemlərin həlli üçün qurulan təşkilatların bu səssizliyi onların özlərini də məhvə sürükləyir. Haqq-ədalət duyğusundan uzaq, içi boş olan beynəlxalq qurumun heç bir cəmiyyətin və şəxsin gözündə etibarı qalmaz. Biz, beynəlxalq ictimaiyyətin Qarabağ məsələsi başda olmaqla dünyada ortaya çıxan haqsızlıqlara "Dur!" deməsini gözləyirik. Sabitliyin, əmin-amanlığın, rifahın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməzsə, kimsə gələcəyinə əminliklə baxa bilməz. Türkiyə və Azərbaycan olaraq biz istənilən vəziyyətdə və şərtlər altında inandığımız dəyərlər uğrunda apardığımız birgə mübarizəni davam etdirəcəyik. Allahın izni ilə bu müqəddəs mübarizəmizdə müvəffəqiyyət qazanacağıq.

İlham Əliyev: "Əminəm ki, İmişli rayonunda sosial, ictimai xidmət sahələrində böyük irəliləyiş olacaqdır"

Oktyabrın 22-də İmişli rayonunda Araz çayının yeni qol-kanalının açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı Araz çayının yeni qol-kanalının açılışına həsr olunmuş mərasimdə çıxış etmişdir. O, demişdir:

Bu gün biz İmişli rayonunda yeni önəmli infrastruktur layihəsinin istismara verilməsini qeyd edirik. Bu gün açılışına toplaşdığımız layihənin icrası təkcə İmişli rayonu üçün deyil, eyni zamanda, qonşu rayonlar üçün də böyük əhəmiyyət daşıyır. Araz çayının yeni qolunun tikintisi böyük maliyyə vəsaiti tələb edən layihədir. Bu layihəyə birinci mərhələdə 80 milyon manat sərmayə qoyulubdur və Araz çayının yeni qolunun uzunluğu 54 kilometrdir. Yeni beton su kanalı 53 min hektar torpağı su ilə təmin edəcək. Biləsuvar, İmişli, Saatlı rayonlarının fermerləri, zəhmətkeşləri bu imkanlardan istifadə edəcəklər. Növbəti mərhələdə əlavə 10 min hektar torpağa suyun verilməsi nəzərdə tutulur və Sabirabad rayonunun torpaqları da suvarma suyu ilə təmin ediləcək.

İnfrastruktur layihələrinə gəldikdə, ümumiyyətlə, deyə bilərəm ki, regional inkişaf üzrə birinci Dövlət Proqramı qəbul olunandan sonra - son 15 il ərzində ölkəmizdə iqtisadiyyat üç dəfədən çox artıb. Ölkəmizdə qazlaşdırmanın səviyyəsi 95 faizə çatır. Biz bu ilin sonuna qədər bu rəqəmə çatacağıq. Azərbaycan elektrik enerjisini ixrac edən ölkəyə çevrilib. Biz təkcə bu ilin doqquz ayında 50 milyon dollardan çox həcmdə elektrik enerjisi ixrac etmişik. Gələcəkdə bu, daha da artacaq. Çünki biz özümüzü tam təmin edirik və yaxın gələcəkdə istifadəyə veriləcək 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyası vasitəsilə ixrac imkanlarımız daha da genişləndiriləcək. On beş min kilometr avtomobil yolu istifadəyə verilir. Biz bu ilin sonuna qədər bu rəqəmə də çatacağıq.

Meliorasiya ilə bağlı bir çox önəmli layihələr icra edilib. Mən onların arasında dörd böyük su anbarını xüsusilə qeyd etmək istəyirəm. Onların sututumu 450 milyon kubmetrə bərabərdir. Əlbəttə ki, onların arasında "Taxtakörpü" və "Şəmkirçay" su anbarları xüsusi yer tutur. Yeni beton su kanallarının çəkilişi ölkəmizdə geniş vüsət alıb və bu gün açılışına toplaşdığımız layihə onlardan biridir. Gələcək planlarımızda da meliorativ tədbirlərin görülməsi xüsusi yer tutur. Növbəti illərin Dövlət İnvestisiya proqramlarında da bu layihələr öz əksini tapacaq. Xüsusilə, gələn ilin əvvəlində qəbul ediləcək regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramında meliorasiya tədbirlərinə xüsusi yer ayrılacaq.

Təkcə aparılan islahatlar nəticəsində, investisiya təşviqi mexanizmi işə düşəndən sonra yerli sahibkarlar ölkə iqtisadiyyatına 2 milyard manatdan çox sərmayə qoyublar. Yəni, imkanlar var, həm kreditləşmə yolu ilə, həm sahibkarların öz vəsaiti hesabına münbit şərait yaradılıb, investisiya iqlimi çox müsbətdir və dövlət dəstəyi də göz qabağındadır. Onu da bildirməliyəm ki, 45 böyük aqroparkın yaradılması nəzərdə tutulur. Onlardan 13-ü bu ilin sonuna qədər artıq fəaliyyətə başlayacaq, bəziləri artıq işləyir, mən onların açılışlarında olmuşam və 45 aqroparkın istifadə etdiyi torpaq sahəsi təqribən 200 min hektara yaxındır. O torpaqlarda heç nə əkilmirdi və o torpaqlar elə boş torpaqlar kimi qalırdı. Biz o torpaqlara həyat qaytardıq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin açılışında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun açılışında iştirak edib.

* * *

Oktyabrın 22-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin İmişli Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib. Prezident İlham Əliyev mərkəzin açılışında iştirak edib. "Azərişıq" ASC-nin sədr əvəzi Vüqar Əhmədov Prezident İlham Əliyevə Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin fəaliyyəti və burada yaradılan şərait barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, "Azərişıq" ASC-nin Aran Regional Elektrik Təchizatı və Satışı İdarəsi 6 rayon - Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, İmişli və Zərdab üzrə 137 min 190, o cümlədən 121 min 172 əhali və 16 min 18 qeyri-əhali abonentə və ümumilikdə, 753 min 200 nəfər əhaliyə xidmət göstərir. İmişli rayonu üzrə isə 33 min 321 abonent mövcuddur. Son illərdə Aran Regional Elektrik Təchizatı və Satışı İdarəsinə daxil olan 6 rayonda "Azərişıq" tərəfindən 110 və 35 kV-luq on yarımstansiya yenidən qurulub, 620 yeni KTM quraşdırılıb, 2200 kilometr müxtəlif gərginlikli elektrik verilişi xətləri çəkilib və təmir edilib. Bundan başqa, regional baş idarənin yerləşdiyi İmişlidə 35 kV-luq "Məzrəli" və "Rəsullu" yarımstansiyaları tam yenidən qurulub, rayon mərkəzində Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi üçün inzibati bina inşa edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İmişli Rayon Məhkəməsinin yeni binasında yaradılan şəraitlə tanış olub, Bayraq Muzeyinin açılışında iştirak edib.

* * *

Həmin gün Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə İmişlidə inşa olunmuş 100 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İmişliyə səfəri çərçivəsində "ASAN Həyat" kompleksinin açılışında iştirak edib.

Bildirilmişdir ki, bu mərkəz İmişli, Saatlı, Biləsuvar, Beyləqan, Zərdab və Füzuli rayonlarında qeydiyyatda olan 624 mindən çox vətəndaşa xidmət göstərəcək. Qeyd edək ki, bu günə kimi "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 25 milyona yaxındır.

Dövlətimizin başçısı kompleksə daxil olan "ASAN Peşə" ilə tanış olmuşdur.

Burada Uşaq Psixo-Sosial İnkişafı Mərkəzinin bölməsi də yaradılıb. Bu bölmədə 3-12 yaşlı uşaqların psixoloji və sosial inkişafına dəstək məqsədilə müxtəlif xidmətlər göstərilir.

Prezident İlham Əliyev mərkəzdə innovativ yeniliklərlə tanış olmuşdur.

Robot "Sofiya" dünyada ilk süni intellektli humanoid robotdur. Bu robot 2015-ci ildə "Hanson Robotiks" şirkəti tərəfindən hazırlanıb və süni intellekt əsasında insanla ünsiyyət saxlaya, fikir mübadiləsi apara bilir.

Robotun əsas fərqləndirici xüsusiyyətlərindən biri də insana məxsus 60-dan çox emosiyanı əks etdirməsidir.

"Sofiya" bu günə qədər dünyada bir çox məşhur simalarla görüşüb, tanınmış televiziya kanallarında, xəbər proqramlarında və teledebatlarda iştirak edib.

* * *

Vətəndaş Məlumatlandırma Sisteminin təqdimatı zamanı bildirilmişdir ki, bu, yeni mobil tətbiq və analitika sistemidir.

Mobil sistemin tətbiqi vətəndaşların baş verən hadisələr - yanğın, təbii fəlakət və qəzalar, zəhərlənmə, su və havanın tərkibinin dəyişilməsi və digər hallarla əlaqədar məkana, vaxta və digər meyarlara görə məlumatlandırılmasını təmin edəcək.

Yeni layihələrdən biri də "ASAN Railway taksi" xidmətidir. Bu, əsasən turistlər üçün nəzərdə tutulmuş dəmir yolu reysləri üzərində innovativ taksi sistemidir.

Prezident İlham Əliyevə "Sağlamlığın ağıllı təhlili" layihəsi barədə də məlumat verildi. Bu avadanlıq və proqram təminatı vasitəsilə hər bir şəxs olduğu məkanda öz sağlamlıq vəziyyəti barədə göstəricilərlə tanış ola bilər, həkim məsləhətləri və sağlamlığa dair tövsiyələr ala bilər. Həmçinin uzaqdan diaqnozun qoyulması, tibbi məlumatların yaddaşda saxlanılması da göstərilən xidmətlər sırasındadır.

Azərbaycanda dini-mənəvi dəyərlərin qorunmasına yüksək diqqət var

Oktyabrın 23-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş İmam Hüseyn məscidinin açılışında iştirak edib.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İmam Hüseyn məscidi barədə məlumat verdi.

Bildirildi ki, məscid 1890-cı ildə xeyriyyəçi Hacı Hacıbala tərəfindən tikilib. 1920-ci ildə bolşevik işğalından sonra məscid bir müddət bağlı qalıb. Lakin sonralar yenidən dindarların istifadəsinə verilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscid təmir olunub.

Azərbaycanın qədim məscidlərindən biri olan İmam Hüseyn məscidində 2017-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir və bərpa işlərinə başlanılıb. Yüksək keyfiyyətlə aparılan təmir zamanı binanın memarlıq üslubu qorunub saxlanılıb, ərazisi abadlaşdırılıb. Məscidin sahəsi 300 kvadratmetrdir. Burada eyni vaxtda 400 nəfər ibadət edə bilər. İmam Hüseyn məscidinin ərazisində 130 nəfərlik mərasim zalı da inşa olunub.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident Mehriban Əliyevaya Müqəddəs Qurani-Kərim hədiyyə etdi.

* * * *

Oktyabrın 23-də Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Məktəbin direktoru Şahzadə İsgəndərova burada yaradılan şərait barədə Mehriban Əliyevaya məlumat verərək bildirdi ki, 11 saylı xüsusi təhsil məktəbi 1937-ci ildən fəaliyyət göstərir. Bu təhsil ocağının köhnə binası 1897-ci ildə inşa edilmişdi. Heydər Əliyev Fondu tərəfindən aparılan monitorinq nəticəsində məktəb binasının təhsilə tam yararsız olduğu aşkar edilmiş və Nərimanov rayonunda məktəb üçün yeni binanın inşasına qərar verilmişdi. Qeyd edildi ki, təhsil müəssisəsinin binasının ümumi sahəsi 4 min kvadratmetrdən çoxdur. Burada 21 sinif otağı, psixoloq, defektoloq, həkim otaqları, idman və akt zalları, yeməkxana var. Eyni zamanda, burada uşaqların istifadəsi üçün kitabxana yaradılıb.

Məktəbin üçmərtəbəli binası 250 şagird yerlikdir. Hazırda 651 nəfər evdə, 137 şagird isə məktəbdə təhsil alır. Məktəbdə 289 müəllim çalışır və onlar autizm, Daun sindromlu, ümumtəhsil proqramını mənimsəyə bilməyən və əqli inkişaf geriliyi diaqnozu olan uşaqlara təlim keçirlər. Ümumtəhsil proqramını mənimsəyə bilməyən şagirdlər də il ərzində aşkarlanaraq bu məktəbə yönləndirilir. 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir səviyyədə inşa olunması bir daha sübut edir ki, Fond da bu istiqamətdə dövlətin icra etdiyi layihələrə sanballı töhfələr verir. Məktəbin həyətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zonası yaradılıb, istirahət köşkləri qurulub.

11 saylı xüsusi təhsil məktəbinin yeni binasında yaradılan şəraitlə tanış olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bu təhsil ocağına fəaliyyətində uğurlar arzuladı.

2006-cı ildən bu vaxtadək "Şərqi Azəri" platformasından 452 milyon barrel neft çıxarılıb

Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokuna daxil olan "Şərqi Azəri" platformasından hasilata başlanandan ötən 12 ildə buradan 452 milyon barrel neft hasil edilib.

"BP Azerbaijan" şirkətindənbildirilib ki, 2006-cı il oktyabrın 22-dən cari ilin birinci yarısınadək "Şərqi Azəri" platformasında ümumi neft hasilatı 452 milyon barrel və ya 61 milyon ton olub.

Qeyd edək ki, Bakıdan təxminən 100 kilometr şərqdə yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar bloku Xəzər hövzəsinin Azərbaycan sektorunda ən iri neft yatağıdır. AÇG yatağı 6 hasilat platformasından ("Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq") və ən müasir texnologiyalarla təchiz edilmiş 2 texnoloji emal, kompressiya, suvurma və texnoloji təchizat platformasından ibarət olan kompleksə malikdir. Dənizdəki qurğulardan dünyanın ən böyük və ən səmərəli terminallarından biri olan və gündə 1,2 milyon barrelədək nefti qəbul və emal etmək gücündə olan Səngəçal terminalına neft nəql etmək üçün Xəzər dənizinin dibi ilə mürəkkəb sualtı boru kəmərləri şəbəkəsi çəkilib. "Çıraq" yatağı 1997-ci ildən istismardadır. "Mərkəzi Azəri"dən hasilat 2005-ci ilin əvvəllərində başlayıb.

"Qərbi Azəri" 2005-ci ilin dekabrından, "Şərqi Azəri" isə 2006-cı il oktyabrından istismardadır. "Dərinsulu Günəşli"dən hasilat 2008-ci ilin aprel ayında başlanıb. Hasil edilən məhsul bu kompleksi "Azəri" yatağında yerləşən əvvəlcədən quraşdırılmış sualtı boru kəmərləri şəbəkəsinə birləşdirən 30 düymlük iki neft kəməri və 28 düymlük tək qaz kəməri ilə qurudakı Səngəçal terminalına nəql edilir.

Bu ilin yanvar-iyun aylarında "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasilat 108 milyon barrel, yəni 15 milyon ton təşkil edib. Hesabat dövründə AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. AÇG-dən ümumi hasilat – "Çıraq" (49 min), "Mərkəzi Azəri" (158 min), "Qərbi Azəri" (127 min), "Şərqi Azəri" (96 min), "Dərinsulu Günəşli" (107 min) və "Qərbi Çıraq" (59 min) platformalarından birlikdə gündəlik orta hesabla 596 min barrel olub.

İki rübdə AÇG-də, ümumilikdə, 116 neft hasilat quyusu, 53 qaz və su quyusu istismarda olub. Altı ayda blokda 6 neft quyusu və 2 su injektor quyusu qazılıb. İlin ilk 6 ayında AÇG layihəsinə təqribən 236 milyon dollar əməliyyat və 552 milyon dollar isə əsaslı məsrəflər xərclənib.

Azərbaycan və Türkiyə daha bir nəhəng layihəni gerçəkləşdirdi

"Oktyabr ayının 19-da qardaş və dost Türkiyənin İzmir şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə nəinki hər iki ölkənin, bütövlükdə regionun həyatında, inkişafında çox böyük və mühüm rola malik olan "Star" neft emalı zavodunun açılış mərasimi keçirildi. Çox böyük tarixi hadisə idi. Hər iki dövlət, hər iki ölkənin müdrik liderləri Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun, müttəfiqliyinin möhkəmləndirilməsi yolunda daha bir uğura imza atdı, tarix yazdı. Bəli, XX əsrin sonlarından üzü bu yana, xüsusilə də, son illər Azərbaycan və Türkiyə çiyin-çiyinə, kürək-kürəyə verərək, bir-birinin ardınca XXI əsrin enerji tarixini yazır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi, TANAP və s.-ni buna misal göstərmək olar. Həmçinin, heç zaman yaddaşlardan, hafizələrdən silinməyəcək 15 sentyabr 2018-ci il paradı... Bakının Qafqaz-İslam Ordusu tərəfindən işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş və hər iki dövlətin liderinin iştirakı ilə baş tutmuş parad olduqca möhtəşəm idi. İndi isə bunların sırasına daha biri əlavə olundu - "Star" neft emalı zavodu. Ümumilikdə götürdükdə isə, ikinci dəfə müstəqillik əldə etdikdən, yəni 1991-ci ildən bu günə qədər 27 il ərzində ölkələrimiz arasında 200-dən çox müqavilə, protokol və digər sənədlər imzalanıb ki, bunlar da bir daha qarşılıqlı münasibətlərin, əlaqələrin, əməkdaşlığın tam mənzərəsini açıb ortaya qoyur".

Bunu mətbuata geniş açıqlamasında Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə deyib.

"Star" neft emalı zavodunun təməlinin hələ 7 il öncə, yəni, 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulduğunu xatırladan Z.Səmədzadə qeyd edib: "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək ki, müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR çıxış edir".

Onun sözlərinə görə, SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda 2018-ci ilin avqustundan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb.

Z.Səmədzadə bildirib ki, zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton "Azeri Light" markalı neft çatdırılıb: "Verilən məlumatlara görə, zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. Bununla yanaşı, "Star" neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq".

Layihənin həyata keçirilmə müddətində 19 min 500 nəfər işçinin çalışdığını deyən komitə sədrinin bildirdiyinə görə, zavod istehsala başladığı zaman 1100 nəfər yeni iş yeri ilə təmin olunacaq: "Star" neft emalı zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod "Petkim" neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək. Bu yerdə onu da qeyd edim ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir. Bundan əlavə, "Star" neft emalı zavodu Türkiyədə özəl sektorun bir nöqtəyə qoyduğu ən böyük investisiya layihəsidir. Bu müəssisə Türkiyədə iqtisadiyyatın və sənayenin inkişafına töhfə verməklə strateji məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Belə ki, o, Türkiyənin idxaldan asılılığını azaltmaqla ölkə iqtisadiyyatına 1,5 milyard dollar əlavə gəlir qazandıracaq".

Komitə sədri onu da xatırladıb ki, Azərbaycan tərəfindən növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcək.

Sonra yenidən tarixi açılış mərasiminə toxunan Z.Səmədzadə bildirib ki, açılışda SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz, xəzinə və maliyyə naziri Berat Albayrak, Böyük Millət Məclisinin sədri Binəli Yıldırım çıxış edib, "Star"-la, Azərbaycan-Türkiyə münasibətləri ilə əlaqədar yüksək fikirlər səsləndiriblər.

Mərasimdə daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxış etdiklərini diqqətə çatdıran Z.Səmədzadə həmin çıxşlarda səslənən fikirlərin tarixə qızıl hərflərlə həkk olunacağını bildirdi: "Dövlət başçımız çıxışında "Bu, bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır", - deyərək təkcə bu il ərzində Türkiyəyə üç səfərinin, Rəcəb Tayyib Ərdoğanın isə Azərbaycana iki səfərinin baş tutduğunu xatırlatdı və əlavə etdi ki, bu səfərlərin sayı özlüyündə bir göstəricidir və onu göstərir ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. "Star Rafineri"nin yaradılması üçün Azərbaycanın 6,3 milyard dollar yatırım etdiyini dilə gətirən cənab İlham Əliyev bunun xaricə qoyulan ən böyük yatırım olduğunu söylədi. Eyni zamanda, bildirdi ki, bu günə kimi digər önəmli layihələr birlikdə həyata keçirilib: Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun yaradılması.

Azərbaycan lideri: "Bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır. Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək, Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var. Bütün bunları biz birgə səylərlə etdik. Bütün bu layihələr böyük maliyyə yatırımı tələb edən layihələrdir. Burada artıq qeyd edildi ki, biz qardaş ölkələrin iqtisadiyyatına böyük sərmayə yatırmışıq. Təkcə Əliağaya qoyulan sərmayə 10 milyard dollara yaxındır və gələcəkdə bu rəqəm daha da artacaq", - deyərək çıxışına yekun vurdu.

Türkiyə Prezidenti cənab Ərdoğan isə çıxışında vurğuladı ki, Türkiyə və Azərbaycanın liderliyi ilə həyata keçirilən hər bir layihə ölkələrimizin regional gücə çevrilmək qabiliyyətini qüvvətləndirməkdədir. Yəni, dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə bir-bir açılışı reallaşdırılan layihələr ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırır.

Bu baxımdan, cənab Ərdoğan çıxışında bu məqama diqqət ayıraraq, "hər şeydən əvvəl 6,3 milyard dollarlıq bir sərmayə - "Star" neft emalı zavodu. Amma bundan başqa konteyner limanı, digər tərəfdən isə ilk açılışı ilə addımını atdığımız neft-kimya müəssisələri - bütün bunları ümumilikdə hesabladıqda söhbət təxminən 10 milyard dollarlıq sərmayədən gedir... 2008-ci ildən etibarən enerji sahəsində ölkəmizdə mühüm layihələr həyata keçirən Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR "Star" neft emalı zavodunu məhz bu rəqəmlə, bu sərmayə ilə ölkəmizə qazandırmışdır. Son 30 ildə həyata keçirilən ən böyük real sektor sərmayəsi olan "Star" neft emalı zavodu Avropa, Yaxın Şərq və Şimali Afrika bölgələrində ən böyük neft müəssisələrindən biri olaraq, inşallah, uğurla fəaliyyət göstərəcək", - dedi və əlavə etdi ki, bu zavod Türkiyənin ən böyük enerji layihəsidir.

Bu baxımdan neft məhsulları idxalında hər il 1,5 milyard dollar məbləğində qənaət edilməsi, neft məhsullarında xaricdən asılılığın azalması hədəflənir. Belə ki, gündə 214 min barrel, ildə 10 milyon ton xam neft emalı gücünə və 1,6 milyon kubmetr ehtiyat saxlama qabiliyyətinə malik zavodda dizel, nafta, təyyarə benzini və LPG kimi neft məhsullarının istehsalı həyata keçiriləcək".

"Azərbaycan dünya neft emalı sənayesinin beşiyi sayılan ilk ölkələrdən biridir" Komitə sədri eyni zamanda, tarixə ekskurs edərək, bir sıra vacib məqamları da xatırladıb:

"Bildiyiniz kimi, dünya sənayesində roluna, əhəmiyyətinə görə mühüm yer tutan sahələrdən biri neft-kimya kompleksləridir. Onun çox mürəkkəb strukturu var və ölkələrin iqtisadi inkişaf səviyyəsini xarakterizə edərkən, bu sahənin də potensialı qiymətləndirilir. Əsrimiz texnika-texnologiya əsridir. Bu texnologiyanın da səmərəli istifadə olunması daha çox yanacaq məhsullarının istehlakı ilə əlaqədardır. Odur ki, dünyanın inkişaf etmiş əksər ölkələrində neft-kimya kompleksləri, neft məhsullarının emalı çox ciddi sahələrdən sayılır. Bu gün neftdən alınan məhsulların sayı həddindən artıq çoxdur və o ölkələrdə neft-kimya komplekslərinin səmərəliliyi yüksəkdir ki, onlarda ən müxtəlif çeşidlərlə məhsul istehsal edən neft emalı müəssisələri var. Mən qətiyyətlə deyə bilərəm ki, Azərbaycan bu məsələdə dünyanın ən öndə gedən ölkələrindən biridir. Çünki Azərbaycan hələ 19-cu əsrin axırlarından etibarən, dünya neft emalı sənayesinin beşiyi sayılan ilk ölkələrdən biridir. Azərbaycanda kiçik də olsa, neftayırma zavodları olub. Konkret olaraq, keçmiş sovetlər dövründə güclü neft-kimya kompleksimiz, neft emalı müəssisələrimiz olub. O vaxt həmin müəssisələr, zavodlar ildə ən aşağısı 20 milyon ton neft emal ediblər. Hətta bir müddət Azərbaycana emal güclərindən daha səmərəli istifadə üçün kənardan, SSRİ-nin digər ucqar bölgələrindən neft gətirilib. Düzdür, onun keyfiyyəti o qədər də yüksək deyildi, amma bunlar faktdır. Yəni tam qürur və fəxarət hissi ilə demək istəyirəm ki, Azərbaycan XX əsrdə, 71 il ərzində Sovet İttifaqının neft emalı sahəsində əsas yerlərindən birini tutub".

Z.Səmədzadə görkəmli alimlərimiz, başda akademik Yusif Məmmədəliyev olmaqla, Əli Quliyev, İzzət Orucova, Vahab Əliyev, Musa Rüstəmov və digərlərinin Azərbaycanın və keçmiş SSRİ neft sənayesinin inkişafına böyük töhfələr verdiyini qeyd etdi:

"Onların əməyi və zəhmətləri müstəsna və danılmazdır, daim də xatırlanmalıdır. Hətta bu gün bizim alimlərimizin bəzilərinin texnologiyaları dünyanın bir çox neftayırma zavodlarında tətbiq olunur. Həmçinin, SOCAR-ın uğurlarının əldə olunmasında neft mütəxəssislərimiz çox böyük xidmətlərə malikdirlər. Mən bu yerdə ötən əsrin 70-ci illərini, ulu öndər Heydər Əliyevin neft emalı sənayesinin inkişafı ilə bağlı fəaliyyətini xatırlayıram. Hələ o vaxtlar böyük işlər görülüb, gələcəyə hesablanmış tarixi addımlar atılıb. Bunlar mütləq deyilməli və vurğulanmalıdır".

"Azərbaycan bu gün dünyəvi layihələrdə iştirak edən mühüm bir tərəfdaş dövlətdir..."

Komitə sədrinin bildirdiyinə görə, bu gün maliyyə vəsaitlərimiz, xammal hasilatımız, neft ixrac edən boru kəmərimiz var və bunlar müsbət amillərdir.

"Ən böyük istehlakçı da Türkiyə və ətraf ölkələrdir. Azərbaycan həm neft hasilatçısıdır, həm də vaxtilə güclü neft-kimya sənayesinə, kompleksinə malik olmuş və indi də yüksək səviyyədə modernizə edilən bir sahəyə malikdir. Burada iqtisadi səmərəlilik məsələsi göz qabağındadır. Bu gün açılışı yenicə həyata keçirilmiş "Star"da ən müasir texnologiyalar tətbiq olunub, hamısı yüksək Qərb texnologiyalarıdır və bunlardan istifadə, heç şübhəsiz ki, iqtisadi səmərəliliyi artıracaq. Burada ən mühüm amillərdən biri də odur ki (buna yuxarıda da toxunmuşdum), Azərbaycan dünyəvi bir layihəyə imza atıb. Azərbaycan dünyamiqyaslı əhəmiyyətə malik bir zavodun sahibidir və bu da əbədi kapital deməkdir. Bu baxımdan çox sevinirəm ki, Azərbaycanın xarici investisiya yatırımı artıb. Çox sevinirəm ki, Azərbaycan-Türkiyə münasibətlərində gündən-günə möhkəmlənən yeni müsbət məqamlar - meyillər özünü göstərir. Sevinirəm ki, Türkiyənin bu məhsullarla bağlı idxalı azalacaq, həmçinin çəkdiyi xərclər azalacaq. Yəni, bu layihə həm istehsalçı olaraq bizim üçün, həm də istehlakçı kimi Türkiyə üçün maraqlıdır. Bu kimi layihələrin genişlənməsi onu göstərir ki, Azərbaycan bu gün dünyəvi layihələrdə iştirak edən mühüm bir tərəfdaş dövlətdir...", - deyə Z.Səmədzadə sözlərinə əlavə edib.

Söhbəti apardı: Kamil

AZƏRBAYCAN İQTİSADİYYATI YENİ MÜSTƏVİDƏ

Siyasət iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir.

Bu təlatümlü zamanda hər bir ölkə özünü xarici, pozitiv olmayan təsirlərdən qorumağa çalışır. Amma bu da mütləq həqiqətdir ki, evin istisinə ətraf mühitin havası təsir edir. Qapalı məkanda temperaturu sabit saxlamaq üçün əlavə enerji sərf etməyə gərək olur. Evin yer örtüyündən hündürdə tikilməsi, divarların qalınlığı, dam altında gil qatının olması, ümumilikdə, uyğun tikinti materiallarından istifadə evin temperaturunun sabitliyinə və enerji qənaitinə, sakinlərin sağlamlığına səbəb olur. Bu təsviri ölkə səviyyəsinə də köçürmək olar.

Bu, inkaredilməz həqiqətdir ki, milli iqtisadi sistem daxilindəki vəziyyətə xarici amillər də təsir edir. Lakin razılaşaq ki, milli iqtisadi sistemin Dayanıqlı olması bu təsirləri azaldır. Eyni zamanda, xarici təsirlərin, meqatrendlərin müntəzəm olaraq qiymətləndirilməsi onlardan qorunmaq və verdikləri üstünlüklərdən istifadə üçün çox vacibdir. Dünya iqtisadiyyatında son zamanların əsas iqtisadi şoku neft qiymətlərinin dəfələrlə aşağı düşməsidir. Bu iqtisadi şokun kökündə, heç şübhəsiz, dünya siyasətindəki gərginlik, xüsusilə də bu günə qədər davam edən ABŞ-la Rusiya arasındakı qarşıdurma dayanır.

Hələ ABŞ-ın sabiq prezidenti Cimmi Karterin milli təhlükəsizlik məsələləri üzrə müşaviri (1977-1981), əslən polyak olan Zbiqnev Kazimir Bzejinski 1997-ci ildə nəşr olunmuş "Böyük Şahmat lövhəsi: Amerikanın üsünlüyü və onun geostrateji əmrləri" əsərində yazırdı ki, Qərb Ukraynaya nəzarət etməlidir ki, Rusiya Avropadan sıxışdırılsın. Əgər bunu etmək mümkün olmasa, onda Polşaya tam nəzarət etmək vacibdir. ABŞ-ın xarici siyasətinin əsas ideoloqlarından biri sayılan Bzejinskinin bu fikirləri geniş ictimaiyyətə bəyan etməsindən 2 il sonra Polşa Şimali Atlantika hərbi blokuna, 5 il sonra isə Avropa İttifaqına üzv qəbul edildi. Daha 1 il sonra, 2005-ci ildə Ukraynada ilk (2010-cu ilədək), 2014-cü ildə isə II qərbmeyilli hakimiyyət qələbə qazandı. Rusiyanı bu qarşıdurmada zəiflətmək üçün ən yaxşı vasitə kimi onun əsas gəlir mənbələrdən biri olan neft qiymətləri hədəfə alındı. Xatırlatmaq yerinə düşərdi ki, ən uğurlu siyasi nikah sayılan ABŞ-Böyük Britaniya İttifaqının rəhbərliyi ilə ötən əsrin 80-ci illərində SSRİ-nin süquta yetirilməsi üçün ilk dəfə atılmış bu addım "Yeni yaxşı unudulmuş köhnədir" fikrinə uyğun olaraq XXI əsrin ikinci onilliyində SSRİ-nin sələfi sayılan Rusiyaya qarşı yenidən tədbiq olundu. **Yada salaq ki, 1985-ci ildə 1 barrel (159 litr) Brent markalı neftin qiyməti 27,56 ABŞ dollarından 1986-cı ildə 14,43 ABŞ dollarınadək düşmüşdür.** ABŞ-ın digər sabiq prezidenti Barak Obamanın 2008-ci ildə ilk seçkisindən əvvəl dediyi "Mənə səs verin, biz Amerikanı dəyişək, mənə səs verin, biz dünyanı dəyişək" fikrinə uyğun olaraq dünyanın siyasi mənzərəsi, o cümlədən neft qiymətləri də kəskin dəyişdi.

Belə ki, 4 iyul 2008-ci il tarixində 1 barrelinin qiyməti 146,3 dollara çatmış neft (Brent markası) 20 yanvar 2016-cı ildə 26,6 dollar eniş nöqtəsinə düşüb. Yada salaq ki, 1 iyul 2008-ci ildə Abxaziya Gürcüstanla sərhədləri bağlayıb, bu da Rusiya-Gürcüstan qarşıdurması ilə nəticələnib.

Neft qiymətlərinin azalması neft ixracatçı ölkələrinə daha çox mənfi təsir edərək, onların gəlirlərini kəskin şəkildə azaltdı. Proses Azərbaycan üçün də çətin oldu. Bu gerçəklik Azərbaycan iqtisadiyyatının, habelə ixracının şaxələndirilməsinin gücləndirilməsi, bütövlükdə iqtisadiyyatın səmərəliliyinin artırılması üçün resursların səfərbər olunmasını zəruri etdi. Ona görə də ölkəmizdə müxtəlif istiqamətlər üzrə köklü islahatlar aparılır və bu da uzunmüddətli inkişaf üçün zəmin yaradır. Reallıq bir daha sübut edir ki, ölkə iqtisadiyyatında baş verən pozitiv dəyişiklikləri davam etdirərək, dünyada gedən prosesləri diqqət mərkəzində saxlamaq vacibdir.

2017-ci ilin ilk aylarının gerçəkliyi ABŞ siyasətində ciddi dönüşlərin baş verdiyini vurğulayır. ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampa görə, ölkəsinin əsas mübarizə hədəfi alıcılıq qabiliyyəti pariteti göstəricisinə görə (AQP) dünya iqtisadiyyatının cəmi 3,28%-nə sahib olan Rusiya yox, payı 15,81% olan ABŞ-ı 17,08%-lə ötmüş Çindir. Qeyd edək ki, Rusiya üsul-idarəçiliyini qəbul etməyən ABŞ demokratiyası bu strateji qarşıdurmanı ləğv etmir, bu administrasiya dövründə taktiki gediş edərək, onu təxirə salmağı nəzərdə tutur (nominal ÜDM göstəricisinə görə, Çin 11.008 trilyon dollar, ABŞ 18.037 trilyon dollara malikdir. Alıcılıq qabiliyyəti paritetinə görə Çin ÜDM-i 19,814 trilyon ABŞ dolları olmaqla dünyada liderdir. Dünya Bankının məlumatları, 2015). Demək, ABŞ siyasətinə görə, əgər neft ixracatçısı olan Rusiyanın zəifləməsi üçün neft qiymətlərinin azalması gərək idisə, neft idxalçısı olan Çinin iqtisadi inkişafına mane olmaq üçün neft qiyməti baha olmalıdır.

Çinin imkanları. Çinin gömrük statistikasına görə, 2016-cı ilin yanvar-oktyabr aylarında ölkəyə idxal olunan neft həcmi 13,6% artaraq 312.28 milyon ton olmuşdur. Amma cəmi ödəmə 19% azalaraq 92,62 milyard dollar təşkil etmişdir. Ümumilikdə, 10 ay ərzində Çin üçün neftin 1 tonunun orta illik qiyməti 416 dollardan 297 dollara düşmüşdür (1 barrelinin qiyməti müvafiq olaraq 66,14 dollardan 47,2 dollara). Hesablamalarımıza görə, neftin artmış qiyməti ilə Çin iqtisadiyyatının əlavə ödəyəcəyi məbləğ ildə 50 milyard dollardan çox olmayacaq. Bu da Çinin nominal ÜDM-inin 0,45%-indən az olaraq ölkənin Dayanıqlığına əhəmiyyətli təsir etməyəcək. Neft qiymətlərinin artması Çin iqtisadiyyatının enerji tutumlu müəyyən sahələrinə təsir edə bilər. Amma sistem əhəmiyyətli iqtisadi sahələri qorumaq və ümumilikdə, şaxələnmiş inkişafı davam etdirmək üçün Çin dövləti bu təsiri yumşaltmaq iqtidarındadır. Belə ki, neft qiymətlərinin yüksək olduğu 2014-cü ildə belə Səmaaltı məmləkət iqtisadi artım göstəricisinə görə dünyada lider ölkələrdən biri olaraq 7,4% artım nümayiş etdirib. Həm də ucuz qiymətlər dövründə Çin dövlətinin mütəmadi olaraq ehtiyat kimi topladığı və 100 milyon tona çatdırmaq niyyətində olduğu ehtiyat nefti də sabitləşməyə kömək edəcək. Qlobal dünyada baş verən hadisələr dünyanın 4 qütblü hala gəlməsi fikrini söyləməyə əsas verir: ABŞ, Avropa İttifaqı, Rusiya və Çin. Bu siyahıya Rusiyanın daxil edilməsi ilk növbədə onun hərbi mövqeyi ilə bağlıdır.

I qütb olan ABŞ XX əsrin 90-cı illərindən qloballaşma meyillərini ciddi şəkildə irəliyə aparan dövlətdən proteksionizmi, milli maraqlarına görə qapalılığı ön plana çəkən ölkəyə çevrilir. Düzdür, buna təsir edən amillərdən biri də kiçik Corc Buşun 2000-ci illərdə Avropada ucuzlaşan poladın ABŞ-a artan idxalının qarşısını almaq üçün idxal rüsumlarını yüksəldərək, "Bizim üçün Amerikanın milli maraqları Ümumdünya Ticarət Təşkilatı qarşısındakı öhdəliklərimizdən daha üstündür" deməsi olub. Amma bu da məlumdur ki, Trampa qədər ABŞ dünyada sərhədsiz bazarın formalaşmasına çalışıb. İndi isə yeni prezident emal sənayəsinin rəqabətqabiliyyətlilik əmsalına görə dünyada ön sıralarda dayanan Meksikaya qarşı proteksionizm mexanizmlərini tətbiq edir və ölkəsini dünya iqtisadiyyatının 40%-ni cəm edən Sakit Okean Əməkdaşlığı (TPP) ticarət sazişindən çıxarır.

Bununla yanaşı, ölkənin əsas diplomatı - dövlət katibi vəzifəsinə dünyanın ən böyük neft şirkəti olan Ekson Mobilin (bazar kapitallaşması 417,2 milyard dollar, 28.01.2013) rəhbəri Reks Tillersonun təyin edilməsi neft lobbisinə hörməti ifadə edir ki, bu da şüuraltı belə neft qiymətinin artmasının arzulandığının göstəricisidir. Qeyd edim ki, Ekson Mobil 1911-ci ildə Con Rokfellerin Standart Oil şirkətinin inhisarçılığa görə məcburi bölüşdürülmüş hissələrinin yenidən birləşməsi əsasında 1999-cu ildə yaranıb.

Beynəlxalq ekspertlər 1 barrel Brent markalı neftin qiymətinin 60-80 dollar arasında qalacağını proqnozlaşdırır. Bu da eyni vahid üçün 26,6 dollar qiymətinin neft hasil edən ölkələr üçün kədərli bir tarix səhifəsi kimi yadda qalması ehtimalını artırır. Qiymətlərin daha baha olmasına şist (slants) neftinin hasilatı mane olur. Nəticə etibarı ilə bu cür proqnoz Azərbaycan iqtisadiyyatının inkişafı baxımından da məqbul sayıla bilər.

II qütb Avropa İttifaqı (Aİ) I qütbdəki parçalanma nəticəsində ayrıca qütb kimi çıxış edir. Hazırda miqrantların kütləvi gəlişi və əmələ gələn narazılıqlar, Böyük Britaniyanın Aİ-dən ayrılması (Brexit), ABŞ-ın Brexiti dəstəkləməsi Aİ-nin nüfuzunu müəyyən qədər azaldıb. Qeyd edək ki, 2015-ci ildə, Brexitdən əvvəl Aİ-nin AQP üzrə ÜDM-i 19,203 trilyon dollarla Çindən sonra II yerdə olub. Dünya Bankının məlumatlarına əsasən apardığımız hesablamalara görə, Böyük Britaniyanın (AQP üzrə ÜDM-i - 2,701) Aİ-dən ayrılmasından sonra Aİ-nin AQP üzrə ÜDM-i azalaraq 16,502 trilyon dollara düşür. Beləliklə, AQP üzrə ÜDM-i 18,037 trilyon dollar olan ABŞ Aİ-ni üstələyərək II yerə qalxa bilib. ABŞ və Aİ arasında gözlənilən strateji ittifaq formalaşandan sonra isə I qütb AQP üzrə ÜDM-i 20,738 trilyon dollar olaraq lider olacaq. Bu hadisələrin kökündə, yəqin müasir anglo-sakson geosiyasətinin banisi Helford Markinderin 1904-cü ildə yazdığı "Tarixin coğrafiya oxu" məqaləsindəki Dəniz sivilizasiyası (ABŞ, Böyük Britaniya) ilə Quru sivilizasiyasının qarşıdurması nəzəriyyəsi dayanır. Qeyd edək ki, əvvəl qeyd etdiyimiz Z.Bzejinski H.Makkinderin davamçılarından sayılır.



Sahibkarlıq mühiti və ona təsir edən amillər

III qütb hesab edilən Rusiya hərbi gücünə arxalanaraq, geosiyasi mövqeyini möhkəmləndirməyə çalışır. Bununla yanaşı, dünya bazarında neftin qiymətində artma meyilləri, ixracında qeyri-neft sektorunun xüsusi çəkisinin 40% təşkil etməsi və s. amillər şimal qonşumuzun iqtisadi inkişaf imkanlarının kifayət qədər olmasını göstərir.

IV qütb hesab edilən Çin 5000 il tarixə malik olaraq bəşəriyyətin sivilizasiya beşiklərindən biri kimi iqtisadi, siyasi potensialını möhkəmləndirir, e.ə. VI əsrdə formalaşmış Daosizm fəlsəfəsinin "Su hardan qovulursa gedir, amma yeri gələndə onun aşındırıb dağıtmadığı heç nə yoxdur" prinsipinə uyğun aram-aram, səs-küysüz qlobal mövqeyini gücləndirir.

Azərbaycan Atatürkün dediyi kimi hamıya: "Yurdda sülh, cahanda sülh" arzulayır. Amma zamanın öz reallıqları var, onları düzgün qiymətləndirərək, inkişafı daha səmərəli təmin etmək olar.

Azərbaycan dövlətinin bu mürəkkəb dünyada, bizim fikrimizcə, ən böyük uğurlarından biri adları çəkilən bu 4 qütbün hər biri ilə konstruktiv, qarşılıqlı hörmət əsasında qurulan münasibətlərə malik olmasıdır. Bu təntənədə XXI əsrin 80-ci illərində mövcud olan 2 qütbdən biri - Sovet İttifaqının ali rəhbərliyində olub, zirvədən prosesləri görərək topladığı təcrübə, münasibət resurslarını milli dövlət quruculuğumuza sərf etmiş ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsiz olmuşdur. Bu konseptual baxışın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla qorunması ölkəmizə Dayanıqlıq və tərəqqi imkanları bəxş edir. Nadir ölkələrə xas olan bu amil ölkəmizdə ictimai sabitliyin qorunması üçün də mütləq şərtdir. İctimai sabitlik isə rifah və iqtisadi inkişaf üçün zəmindir.

Ling prinsipindən fərəhlənən yunan alimi Arximed "Mənə dayaq nöqtəsi verin, mən Yer kürəsini qaldırım" deyirdi. Azərbaycanın da dünyanın sadaladığımız qütblərində və digər güc mərkəzlərində dayaq nöqtələri var və bu da daxili iqtisadi sistemdə keyfiyyətli islahatlar aparmaq, davamlı inkişafı təmin etmək üçün zəruri əsaslar yaradır.

"Ehtimalı olmayan hadisənin baş verməsi çox ehtimallıdır", - deyən yunan filosofu Aqafonun müdrikliyinə hörmətlə yanaşaraq, yenə də dünyada gedən prosesləri təhlil etməyi zəruri sayırıq. Bu, ölkəmiz üçün bütövlükdə iqtisadiyyatın, ixracın, idxalın, qəbul etdiyimiz sərmayələrin, ehtiyatlarımızı saxladığımız valyuta səbəti və cografiyası strukturunun səmərəliliyinin artırılması üçün vacibdir.

Daxili iqtiadi sistemdə dərin islahatlar aparmaq üçün hədəflənməli olan kateqoriya isə, fikrimizcə, sahibkarlıqdır **(sxem).**

Yuxarıda göstərilən sxemlə bağlı məlumatları qısaca olaraq təhlil edərək qeyd edə bilərik ki, ictimai-siyasi sabitlik, biznes sahəsində yoxlamaların azalması, ASAN xidmətin səmərəli fəaliyyəti, biznes ombudsmanı institutunun formalaşması, mülkiyyətçi hüquqlarının qorunması istiqamətində atılan müsbət addımlar gələcəkdə ölkə iqtisadiyyatına sərmayə qoyuluşunun artmasına əhəmiyyətli təkan verər. Dərin araşdırmalara, əsaslandırmalara istinad edərək səmərəli fəaliyyət göstərən dövlət sahibkarlığına xələl gətirmədən dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı ciddi işlərin aparılması, hərraclarda əmlakın satışının asanlaşması, istehlakçı-biznes maraqlarının uzlaşması və digər amillərdən istifadə etmək hesabına iqtisadiyyatı canlandırmaq mümkündür. Bütün inkişaf amillərindən istifadə etməklə əhalinin alıcılıq qabiliyyətini qaldırmaq və beləliklə məcmu tələbi artırmaq olar. Digər vacib məsələ maliyyə resurslarına çıxış imkanlarının artırılmasıdır.

Bir amilin üzərində daha ətraflı dayanaq.

Milli valyuta məzənnəsi

Cəmiyyət bilir ki, son zamanlar Azərbaycan manatının ABŞ dollarına qarşı ucuzlaşması obyektiv prosesdir və əsasən neftin dünya bazarında qiymətinin azalması ilə əlaqəlidir. Azərbaycan Mərkəzi Bankının hesabatlarında inflyasiyanın pul (monetar) və qeyri-pul amilləri göstərilir. Yəni, qiymətlər dövriyyədəki pulun artımı ilə yanaşı, müəyyən qədər də psixoloji gözləmələrə görə artır. Bu prosesi milli valyuta məzənnəsinin azalmasına (devalvasiyaya) da aid etmək olar.

Bununla bağlı bir haşiyəyə çıxım. XX əsrin 70-ci illərində ABŞ dolları ucuzlaşırdı. 80-ci illərdə isə əksinə, dollar bahalaşırdı. Hər 2 halda ABŞ-da KİV narazıların çıxışlarını ifadə edirdi. Onda ictimaiyyətin haqlı sualı meydana gəldi. Necə oldu ki, dollar ucuzlaşdı, insanlar narazı oldu və dollar bahalaşdı, insanlar yenə də narazı oldu? Cavab isə belədir ki, istənilən halda uduzan da olur, udan da (idxalçılar milli valyuta məzənnəsinin bahalaşmasını istəyir, ixracatçılar isə ucuzlaşmasını). Uduzanlar narazılığını açıq şəkildə bəyan edir, udanlar isə susur. Amma möhtəkirlərdən başqa hamının razılaşdığı bir məqam var: hamı məzənnənin proqnozlarını bilmək istəyir; xərclərini hesablayan ev təsərrüfatları, kredit götürənlər, malını nisyə satanlar və s.

Fikrimizcə, məcmu valyuta ehtiyatlarına arxalanaraq, milli valyutanın müəyyən dövr, məsələn: 1 il, 6 ay, rüb üçün proqnozlarını bildirmək iqtisadiyyat üçün faydalı olar. Qeyd edək ki, bu qarşılıqlı prosesdir. Belə ki, proqnozlaşdırılan məzənnə sərmayə qoyuluşlarını təşviq edir, öz növbəsində, ümumilikdə, sərmayə qoyuluşu və bunun nəticəsində istehsal olunmuş əmtəələrin ixracı, idxalı əvəzləməsi məzənnənin möhkəmlənməsinə kömək edir. Nəzərə almaq lazımdır ki, məzənnə riskini tamlıqla sahibkarlığın üzərinə qoyduqda ixracyönümlü sərmayələr daha fəal gerçəkləşir. Bu, bir tərəfdən müsbət haldır. Digər tərəfdən isə bu, sərmayə qoyuluşunun çətin hissəsidir. Xaricdə bazar tapmaq riskləri, daşınma xərclərinin artması sahibkarın mənfəətinin həcminə təsir edir. Yerli bazara istiqamətlənən sərmayələrin bir qismi isə alıcılıq qabiliyyətinin azalması riskindən qorunmaq üçün gözləmə mövqeyinə keçir. İqtisadi təhlükəsizliklə bağlı sərmayələrin strukturu da şaxəli olmalıdır. Bu fikirləri ümumiləşdirərək deyə bilərik ki, sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün hər bir amil diqqətdə saxlanılmalı və pozitiv dəyişikliklər edilməsinə çalışılmalıdır.

Nəzərə alınmalıdır ki, sərmayə coğrafiyanı seçir. Toplam cəlbedicilik göstəricilərinə görə, Azərbaycan da irəlidə olmağa ciddi səy edir. Vurğulamaq istərdim ki, ölkəmizdə XXI əsrin çağırışlarına uyğun rəqabətədavamlı iqtisadiyyatın güclənmə imkanları kifayət qədərdir və onların reallaşması üçün hamımız çalışmalıyıq.

i.f.d. E.Səmədzadə,
Aİİ-nin sədr müavini,
ADİU-nun dosenti,
BMA-nın müxbir üzvü

Neftin qiyməti bahalaşır

Dünya birjalarında neftin qiyməti bahalaşıb.

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,28 dollar artaraq 76,72 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,09 dollar bahalaşaraq 66,52 dollar olub.

Azərbaycan neftinin 1 barreli təqribən 81 dollara satılır

CIF bazisi üzrə İtaliyanın Auqusta limanı şərtləri ilə Azərbaycanın yüngül neftinin qiyməti oktyabrın 19-da 80,95 dollar/barrel təşkil edib ki, bu da ötən həftənin cümə axşamına olan göstəricidən 0,44 dollar/barrel çoxdur. Bu barədə Trend-ə ölkənin neft-qaz bazarındakı mənbə bildirib. FOB bazisi üzrə Türkiyənin Ceyhan limanında Azərbaycanın yüngül neftinin qiyməti oktyabrın 19-da 80,02 dollar/barrel təşkil edib ki, bu da əvvəlki qiymətdən 0,35 dollar/barrel çoxdur.

Novorossiysk limanından yüklənən URALS neftinin qiyməti oktyabrın 19-da 77,15 dollar/barrel təşkil edib ki, Trend-ə görə, bu, əvvəlki qiymətdən 0,45 dollar/barrel çoxdur.

Şimal dənizindən hasil edilən «Brent Dated» etalon növlü neftin qiyməti isə oktyabrın 19-da 80,64 dollar/barrel təşkil edib. Bu, əvvəlki qiymətdən 0,43 dollar/barrel çoxdur.

İqtisad elminin inkişafına böyük töhfələr vermiş elm və təhsil ocağı

İqtisad elmi sahəsində Azərbaycan Respublikasının ilk elmi-tədqiqat müəssisəsi olan AMEA İqtisadiyyat İnstitutunun yaranmasının 60 ili tamam olmuşdur. Respublikada iqtisad elminin inkişafı, təşkili, əlaqələndirilməsi və yüksək ixtisaslı iqtisadçı elmi kadrların hazırlanmasının əsas mərkəzi kimi çıxış edən bu institut Azərbaycan SSR Nazirlər Sovetinin 14 aprel 1958-ci il tarixli qərarı ilə 1945-ci ildən Azərbaycan Elmlər Akademiyasında fəaliyyət göstərmiş İqtisadiyyat sektorunun bazası əsasında yaradılmışdır. **Ölkəmizdə iqtisad elminin inkişafı və yüksəkixtisaslı iqtisadçı elmi kadrların hazırlanması sahəsində müstəsna rol oynamış AMEA-nın İqtisadiyyat İnstitutu çox çətin və şərəfli inkişaf yolu keçərək, hazırda ölkəmizin ən qabaqcıl elm və təhsil ocaqlarından birinə çevrilmişdir.**

Azərbaycanda iqtisadi fikrin meydana gəlməsi çox qədim və zəngin tarixə malik olsa da, onun bir elm kimi formalaşması, institusional əsaslarının yaranması və inkişaf istiqamətlərinin müəyyənləşməsi əsas etibarilə keçən əsrin 20-30-cu və 40-cı illərinin əvvəllərinə təsadüf etmiş və müxtəlif ali təhsil və elmi-tədqiqat müəssisələrində inkişaf etdirilmişdir. Bunlara keçən əsrin 20-ci və 30-cu illərin əvvəllərində təşkil edilmiş M.Əzizbəyov adına Politexnik və K.Marks adına Xalq Təsərrüfatı İnstitutları; M.Əzizbəyov adına APİ-nin İqtisadiyyat fakültəsi; onun yanında yaradılmış "Elmi-iqtisad cəmiyyəti"; Bakı Dövlət Darülfununun Siyasi iqtisad, İqtisadi siyasət, Xalq təsərrüfatı tarixi kafedraları, həmin darülfununun nəzdində təşkil edilmiş "İctimai-iqtisadi və pedaqoji elmləri öyrənən cəmiyyət"; "Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu" və sair aiddir. Sonda adı çəkilən Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun bazası əsasında 1932-ci ildə SSRİ EA-nın Zaqafqaziya filialının Azərbaycan şöbəsi, onun bazası əsasında isə 1935-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı yaradılmışdır. 1937-ci ilin aprelində bu filialın tərkibində Coğrafiya bölməsi, 1938-ci ilin fevralında isə İqtisadiyyat bölməsi təşkil edilmişdir. Bu bölmələr 1942-ci ildə birləşdirilərək, SSRİ EA Azərbaycan filialının Coğrafiya və İqtisadiyyat bölməsi adı altında fəaliyyət göstərmiş və 1945-ci ilin mart ayının 27-də SSRİ Elmlər Akademiyası və Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Azərbaycan SSR Elmlər Akademiyası yarandıqdan sonra həmin sektorlar ayrılaraq müstəqil fəaliyyət göstərməyə başlamışdır. Elmlər Akademiyasının tərkibində başqa bölmələr kimi müstəqil İqtisadiyyat sektorunun yaranması ölkəmizin elmi və mənəvi həyatında mühüm hadisə olub, Azərbaycanda iqtisad elmi və iqtisadi fikrin inkişafında əvəzsiz rol oynamışdır. Bu sektora müxtəlif illərdə respublikanın ilk görkəmli iqtisadçı alimlərindən professor H.Ə.Dadaşov (1945-1951-ci illər), professor Z.H. Cahangirov (1952-1953-cü illər), N.İ.Safonov (1953-1957-ci illər) və professor Ə.S.Fərəcov (1957-1958-ci illər) rəhbərlik etmişlər. İlk vaxtlarda bu sektorda cəmi 5-6 nəfər elmi dərəcəsi olan şəxslərin işləməsinə baxmayaraq, burada çalışmış əməkdaşlar respublika hökumətinin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq ölkənin neft sənayesinin inkişafı ilə yanaşı, maşınqayırma, dağ-mədən, qaz, yüngül və yeyinti sənaye sahələrinin, kənd təsərrüfatının, onun pambıqçılıq və çayçılıq sahələrinin inkişafı problemləri sahəsində ciddi tədqiqat işləri aparmışlar. **Sektorun əməkdaşları keçmiş SSRİ-də ilk dəfə olaraq neft sənayesinin inkişafı üçün xüsusi əhəmiyyəti olan təkrar üsulla neft çıxarılmasının iqtisadi səmərəliliyinin müəyyən edilməsi metodikasını işləyib hazırlamışlar. Həmin metodika 1954-cü ildə Bakıda və Moskvada keçirilmiş Ümumittifaq elmi sessiyalarda müzakirə olunaraq bəyənilmiş və SSRİ-də neft yataqlarının işlənməsində istifadə edilmək üçün tövsiyə edilmişdir.** Bu metodikanın istehsalata tətbiqi nəticəsində həmin dövrdə ölkəmizdə neft hasilatının həcmi 50 faiz, əmək məhsuldarlığının səviyyəsi 2 dəfə artmış, məhsulun maya dəyəri isə 40 faiz azalmışdır. Sektorun əməkdaşları, eyni zamanda, Azərbaycanda iqtisadi tarix və iqtisadi fikrin formalaşması və inkişafının bəzi mühüm aspektlərini də ətraflı tədqiq edib öyrənmiş və bu sahədə bir sıra sanballı elmi əsərlər yazıb nəşr etdirmişlər. Bunların arasında B.Y.Axundovun "İcarə sistemi ləğv edildikdən sonra Bakı neft sənayesinin inkişafı" (1949), "İnqilabdan əvvəlki dövrdə Bakı neft sənayesində xarici kapital haqqında" (1953), Ə.S.Fərəcovun "Orta əsrlərdə (XI-XIV) Azərbaycanda iqtisadi fikrin inkişafının qısa oçerkləri" və H.Ə.Dadaşovun "Azərbaycan kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafının bəzi məsələlərinə dair" (1957) əsərləri xüsusi yer tutur. 1958-ci il aprel ayının 14-də Azərbaycan SSR Elmlər Akademiyasının tərkibində İqtisadiyyat İnstitutunun yaradılması mühüm tarixi hadisə olub, respublikamızda iqtisad elminin inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Bu instituta müxtəlif illərdə iqtisad elmləri namizədi, görkəmli diplomat H.T.Hüseynov (1958-1964), akademik Ə.Ə.Mahmudov (1964-1989), AMEA-nın müxbir üzvləri A.K.Ələsgərov (1991-1998) və Ş.M.Muradov (1999-2008), iqtisad elmləri doktoru İ.H.Alıyev (2008-2014-cü illər) rəhbərik etmiş, 2014-cü ilin may ayından isə iqtisad elmləri doktoru N.M.İmanov rəhbərlik edir.

İqtisadiyyat İnstitutu yaradılarkən onun qarşısına qoyulmuş başlıca vəzifə siyasi-iqtisadın və konkret iqtisadiyyat elmlərinin aktual problemlərinin tədqiqi və təbliği ilə məşğul olmaqdan; iqtisad elminin mühüm sahələri üzrə yüksəkixtisaslı elmi kadrlar hazırlamaqdan, elmi-nəzəri və əməli əhəmiyyəti olan tədqiqat əsərləri yazıb nəşr etdirməklə yanaşı, konkret təklif və tövsiyələr hazırlayıb hökumət və dövlət orqanlarına təqdim etməkdən ibarət olmuşdur. Qarşıya qoyulmuş bu vəzifələrin yerinə yetirilməsinə uyğun olaraq institutun quruluşu formalaşdırılmış və həmin şöbələrdə cəmi 47 nəfər əməkdaş, o cümlədən 38 nəfər elmi işçi çalışmışdır. Fəaliyyət göstərdiyi ilk on il (1958-1968-ci illər) ərzində institutun əməkdaşları respublikamızda iqtisad elminin və iqtisadi fikrin, habelə ölkə iqtisadiyyatının inkişafı üçün mühüm elmi-nəzəri və təcrübəvi əhəmiyyəti olan problemlərin, o cümlədən Azərbaycanda iqtisadi fikir tarixi, uzunmüddətli perspektivdə xalq təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi və məhsuldar qüvvələrin ölkə ərazisində yerləşdirilməsi, respublikanın regionları üzrə əmək ehtiyatlarının proqnozlaşdırılması və səmərəli istifadə edilməsi yollarının müəyyən edilməsi, əsaslı vəsait qoyuluşundan səmərəli istifadə edilməsi və sair problemlər tədqiq edilib öyrənilmişdir. Bu tədqiqat işləri respublikanın planlaşdırma orqanları ilə sıx əməkdaşlıq şəraitində aparılmış və onların nəticələri ölkənin partiya, dövlət və hökumət orqanlarına təqdim edilmişdir. Həmin illərdə institutun əməkdaşları, eyni zamanda, mühüm elmi və elmi-təcrübəvi əhəmiyyəti olan bir sıra sanballı tədqiqat əsərləri yazıb nəşr etdirmişlər.

Şahbaz MURADOV,
AMEA-nın müxbir üzvü,
i.e.d., professor,
Əməkdar elm xadimi

1969-cu il iyul ayının 14-də ümummilli liderimiz Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə seçildikdən az sonra Azərbaycan KP MK-nın avqust (1969-cu il) plenumundakı çıxışında və 1973-cü il oktyabr ayının 13-də Azərbaycan KP Mərkəzi Komitəsində Azərbaycan SSR Dövlət Plan Komitəsi, Elmlər Akademiyası və Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat institutlarının işi haqqında məsələ müzakirə edilərkən, nitqində ölkənin iqtisadçı alimləri qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur. **Mərkəzi Komitədə qəbul edilmiş qərarda xüsusi olaraq qeyd olunmuşdur ki: "Respublika Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu iqtisad elminin mühüm problemlərinin işlənməsində əsas mərkəz olmalıdır".** Qarşıya qoyulmuş həmin vəzifələr əsas götürülərək, o vaxtdan İqtisadiyyat İnstitutunun quruluşunda, onun elmi istiqamətlərində, burada yerinə yetirilən tədqiqatların elmi səviyyəsinin yüksəldilməsi və yüksəkixtisaslı elmi kadrların hazırlanması sahəsində xeyli müsbət dəyişikliklər baş vermişdir. **İnstitutun əməkdaşları bu illər ərzində ölkə iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən dövlət və xalq təsərrüfatı əhəmiyyətli 100-dən artıq mövzu üzərində elmi-tədqiqat işləri aparmış, elmi və təcrübəvi əhəmiyyəti olan 350-dən artıq təklif və tövsiyələr hazırlayıb müvafiq dövlət və hökumət orqanlarına təqdim etmişlər.** Bu tədqiqatlar arasında "Elmin nailiyyətlərinin istehsalata tətbiqinin sürətləndirilməsi", "Uzunmüddətli perspektivdə (1980-ci ilədək) əmək ehtiyatlarının proqnozlaşdırılması və onlardan səmərəli istifadə edilməsinin sosial-iqtisadi problemləri", "Məhsuldar qüvvələrin ölkə ərazisində səmərəli yerləşdirilməsi və inkişaf perspektivləri", "Kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin iqtisadi səmərəliliyi", "Milli gəlirin təkrar istehsalının surət və proporsiyaları", "Dağlıq Qarabağda və Naxçıvan MR-də məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və inkişafı", "Elmi-texniki tərəqqi şəraitində ixtisaslı kadrların təkrar istehsalı", "Üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsi perspektivləri, "Mütərəqqi sənaye sahələrinin inkişafı və düzgün yerləşdirilməsi", "Əmək məhsuldarlığının yüksəldilməsi yolları" və sair vardır. Bu illər ərzində institutun əməkdaşları tərəfindən ümumi həcmi 1950 çap vərəqindən artıq 950-dən çox monoqrafiya, kitab, dərslik və məqalələr yazılıb, ölkəmizin və xarici dövlətlərin nüfuzlu nəşriyyatlarında nəşr edilmişdir. Bu illərdə institutda 20 nəfər elmlər doktoru, 80 nəfər elmlər namizədləri hazırlanmışdır. 1958-ci ildə institutda çalışmış elmi işçilərin sayı cəmi 38 nəfər, o cümlədən elmlər namizədlərinin sayı 18 nəfər təşkil etdiyi halda, 1980-ci ildə onların sayı müvafiq surətdə 75 və 40 nəfər təşkil etmiş və ya 2,0 və 2,2 dəfə artmışdır. 1958-ci ildə institutda bir nəfər də olsun elmlər doktoru çalışmadığı halda, 1980-ci ildə onların sayı 7 nəfər təşkil etmişdir.

Həmin illərdə institutun əməkdaşlarının ən böyük uğurlarından biri də ondan ibarət olmuşdur ki, onların 23 elmi nəticəsi sovet elminin ən mühüm nailiyyəti kimi SSRİ EA Rəyasət Heyətinin hesabatına daxil edilmişdir. Bunlara yuxarıda adıçəkilən monoqrafiya ilə yanaşı, "Əmək məhsuldarlığının regional problemləri və iqtisadi inkişafın xalq təsərrüfatı proporsiyalarının təkmilləşdirilməsi"; "Azərbaycanda neft və qaz axtarışı və kəşfiyyatının iqtisadi cəhətdən qiymətləndirilməsi və səmərəliliyinin artırılmasının təkmilləşdirilməsi üzrə təkliflər"; "Əhalinin həyat səviyyəsinin proqnozlaşdırılması və onun reallaşdırılmasının iqtisadi-riyazi modelinin hazırlanması"; "Müttəfiq respublikalarda milli gəlirin bölgüsü və istifadəsinin daha səmərəli yollarının aşkara çıxarılması" və sair aiddir. SSRİ-nin süqutu ərəfəsində isə (80-ci illərin II yarısında) institutun əməkdaşları respublikanın 300-dən artıq müəssisə və təşkilatlarının iştirakı ilə "Azərbaycan SSR-də Elmi-Texniki Tərəqqinin Kompleks Proqramı və onun sosial-iqtisadi nəticələri" ilə yanaşı, "Üstün tipli intensiv geniş təkrar istehsala keçidin sosial-iqtisadi problemləri"; "Azərbaycan sənayesində kapital qoyuluşunun səmərəliliyinin yüksəldilməsi"; "Xalq təsərrüfatı sahələrində elmi-texniki tərəqqinin proqnozlaşdırılması"; "Azərbaycan SSR-də istehsalın ərazi təşkilinin səmərələşdirilməsi"; "Əhalinin təkrar istehsalı və əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemləri" və sair mövzularda tədqiqat işləri aparmış və bir sıra əsərlər yazıb nəşr etdirmişlər. 1988-1992-ci illərdə isə respublikada baş alıb gedən özbaşınalıqlar və xaosun yaranması bütün başqa sahələrdə olduğu kimi, Azərbaycan Elmlər Akademiyasının və onun İqtisadiyyat İnstitutunun fəaliyyətinə də öz dağıdıcı təsirini göstərmiş və respublikanın Elmlər Akademiyası bağlanmaq təhlükəsi ilə üz-üzə qalmışdır. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonrakı ilk dövrdə (1991-1993-cü illərdə) uzun illərdən bəri institutda formalaşmış yüksəkixtisaslı elmi kadrların - elmlər doktorları, elmlər namizədləri və gənc perspektivli kadrların böyük bir hissəsinin işdən çıxıb başqa yüksək əməkhaqqı verilən sahələrdə işləməyə, ali məktəblərdə və özəl institutlarda çalışmağa və bizneslə məşğul olmağa getməsi, bir çox görkəmli alimlərimizin isə dünyalarını dəyişmələri ilə əlaqədar olaraq institutun elmi kadr potensialı xeyli zəifləmişdir.

(ardı 6-cı səhifədə)

İnnovasiyalardan istifadə, fermerlərə yaxınlıq, yaxşı idarəetmə aqrar sahədəki islahatların əsas prinsipləridir

Parisdə səfərdə olan Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) ticarət və kənd təsərrüfatı üzrə direktorluğunda görüş keçirib.

Görüşdə ölkəmizdə kənd təsərrüfatının inkişafının dövlətimizin başçısının dəstəyi və mühüm dövlət islahatları ilə müşayiət olunduğu diqqətə çatdırılıb.

Bildirilib ki, Azərbaycanda 2017-ci ildə kənd təsərrüfatı üzrə inkişaf göstəricisi əvvəlki il ilə müqayisədə 4,2 faiz artıb. Ərzaq təhlükəsizliyi, əhalinin keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin olunması əsas məqsədlərdəndir.

Aqrar sektorda innovasiyalardan istifadə, fermerlərə yaxınlıq, yaxşı idarəetmə kənd təsərrüfatı sahəsində aparılan islahatların əsas prinsipləridir. Eyni zamanda, görüşdə dövlət sektoru ilə özəl sektor arasında dialoqun möhkəmləndirilməsi, koordinasiya və operativliyin təmin edilməsi istiqamətində görülən tədbirlərdən söz açılıb.

Ölkəmizin İƏİT nəzdində kənd təsərrüfatı üzrə fəaliyyət göstərən komitələrlə əməkdaşlığın gücləndirilməsi və bu komitələrin fəaliyyətində ölkəmizin yaxından iştirakına dair ətraflı müzakirələr aparılıb.

Azərbaycan ixrac missiyası Türkiyəyə gedir

İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə növbəti ixrac missiyası Türkiyənin İstanbul şəhərinə təşkil olunub.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, oktyabrın 23-dən başlayan ixrac missiyasına qida, inşaat

və tikinti materialları, mebel istehsalı, turizm, yüngül və kimya sənayesi sahələrində fəaliyyət göstərən 19 Azərbaycan şirkəti daxildir. Missiya çərçivəsində azərbaycanlı sahibkarlar türk iş adamları ilə ikitərəfli görüşlər keçirəcək, Azərbaycan məhsullarının Türkiyəyə ixracının genişləndirilməsinə dair müzakirələr aparacaqlar.

İxrac missiyası oktyabrın 27-dək davam edəcək.

Polşa iş adamlarının Azərbaycan bazarına marağı artıb

Oktyabrın 23-də Bakıda keçirilən XXIV Azərbaycan Beynəlxalq İnşaat "BakuBuild Azerbaijan" sərgisində bir qrup sahibkar tərəfindən Polşanın inşaat sektoru təmsil olunur. Bu sektorun imkan və potensialını şirkətlərlə yanaşı, "Tikinti və təmir" təbliğat maşınını həyata keçirən Polşanın İnvestisiya və Ticarət Agentliyi (PİTA) təqdim edir.

Bu barədə agentliyin Bakı Bürosunun eksperti Cavidan Şərbətov məlumat verib.

Onun sözlərinə görə, Polşanın İnvestisiya və Ticarət Agentliyinin 65 nümayəndəliyi fəaliyyət göstərir, qurum bu ilin sonunadək onların sayını 70-ə çatdırmağı planlaşdırır.

C.Şərbətov onu da diqqətə çatdırıb ki, PİTA-nın əsas məqsədlərindən biri Polşa iş adamları və xarici iş adamları arasında əlaqələr yaratmaq, kiçik və orta müəssisə və şirkətlərə öz məhsullarını ixrac etməkdə köməklik göstərməkdir. Bazar haqqında məlumatların toplanması, şirkət və qurumların əlaqə şəbəkəsinin təşkili, Polşa və xarici şirkətlər üçün təlimlərin təşkili, sərgilərdə iştirak, reklam və kampaniyaların aparılması kimi məsələlər də agentliyin başlıca vəzifələrindən sayılır.

Statistikaya müraciət edən ekspert qeyd edib ki, PİTA 2018-ci ildə 61 beynəlxalq sərgidə iştirak edib, 2019-cu ildə isə 38 beynəlxalq sərgidə təmsil olunacaq. Bunun üçün ayrılmış 2 illik büdcə isə 40 milyon avrodur. Qurumun əhatə etdiyi sahələr isə əsasən mebel, moda, yaxta və gəmilər, kosmetika, tibbi avadanlıqlar, əczaçılıq, maşın qurğuları, avtomobillər və təyyarələr üçün ehtiyat hissələri, bina tikintisidir.

Polşanın İnvestisiya və Ticarət Agentliyinin Bakıdakı Xarici Ticarət Nümayəndəliyinin direktoru Elnarə Məmmədova bildirib ki, Azərbaycanın xarici sərmayələrə açıq bir ölkə olması, burada iş adamları üçün əlverişli investisiya mühitinin yaradılması səbəbindən Polşa iş adamlarının Azərbaycan bazarına marağı artıb. "Bizim də əsas məqsəd və vəzifəmiz bu potensialdan faydalanaraq, iki ölkə arasında iqtisadi əlaqələrin genişlənməsinə töhfə vermək, MDB, Yaxın Şərq və Mərkəzi Asiya ölkələrinin 600 milyonluq müştəri bazarına çıxış imkanına malik olan Azərbaycanda Polşa şirkətlərinə lazımi köməklik və dəstək göstərməkdir",- deyə E.Məmmədova bildirib.

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən fəal xarici siyasət yeritməyə başladı. 1918-ci il mayın 30-da Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Türkiyə, Almaniya, Avstriya-Macarıstan, Fransa, Böyük Britaniya, İtaliya, ABŞ, Bolqarıstan, Rumıniya, İran, İspaniya, Hollandiya, Rusiya, İsveç, Ukrayna, Danimarka və Yaponiya xarici işlər nazirliklərinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə məlumat göndərdi.

Zaqafqaziya seyminin nümayəndələri ilə Türkiyə arasında Batum danışıqları iyun ayının 4-də hər üç respublika və Osmanlı dövləti arasında "sülh və dostluq" haqqında müqavilələrin imzalanması ilə nəticələndi. "Osmanlı imperator hökuməti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq müqaviləsi" Azərbaycan hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. Müqavilənin 4-cü maddəsində deyilirdi: "Osmanlı imperator hökuməti Azərbaycan Cümhuriyyəti hökumətinə qayda-qanun və ölkənin təhlükəsizliyinin təmin olunmasına ehtiyac duyduğu təqdirdə hərbi qüvvə ilə kömək etməyi öhdəsinə götürür". Osmanlı yardımında əsas məqsəd 1918-ci ilin yazında bolşeviklərin əlinə keçmiş Bakını azad etmək idi.

1918-ci il iyunun 17-də böhrandan sonra yaradılmış yeni hökumət kabinəsinin xarici siyasətdə ilk addımı Dördlər İttifaqı və Cənubi Qafqaz respublikalarının iştirakı ilə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına Məhəmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədov və Aslan bəy Səfikürdskidən ibarət heyətin göndərilməsi oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmaq məqsədilə 1918-ci il avqustun 23-də Əlimərdan bəy Topçubaşovu fövqəladə elçi və səlahiyyətli nazir kimi İstanbula göndərmişdi. Burada o, rəsmi görüşlər keçirmiş, Azərbaycanla bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparmışdı.

İstanbulda vəziyyəti müşahidə edən Almaniya nümayəndələri yəqin etdilər ki, Azərbaycan hökuməti bolşeviklərin əlində olan Bakı qüberniyasını heç kimə güzəştə getmək fikrində deyildir. Belə olduqda, onlar Bakı barəsində planlarını reallaşdırmaq üçün Sovet Rusiyası ilə gizli danışıqlara başladılar.

Sovet Rusiyasının işə qarışması Azərbaycan hökumətinin Bakını azad etməsini xeyli yubandırdı. Almaniya-Rusiya danışıqları davam etdiyi zaman Bakı Xalq Komissarları Sovetinin şəhəri əldə saxlamaq üçün çar polkovniki L.Biçeraxovdan yardım almaq ümidləri doğrulmadı. "Sentrokaspi"çilər və avqust ayının əvvəllərində L. Denstervil başda olmaqla Bakıya daxil olan ingilislər də şəhəri Qafqaz İslam Ordusunun hücumundan müdafiə etmək iqtidarında deyildilər. Nəhayət, Berlində üç aya qədər davam edən Almaniya-Rusiya danışıqları 1918-ci il 27 avqust sazişinin imzalanması ilə nəticələndi (Brest-Litovsk müqaviləsinə əlavə məxfi saziş).

İstanbulda olan və Almaniya ilə Rusiya arasındakı gizli sövdələşmədən xəbər tutan Azərbaycan nümayəndələri 27 avqust sazişi ilə bağlı Almaniyanın Türkiyədəki səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə, həmçinin bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi. 1918-ci ilin sentyabrında yaranmış beynəlxalq vəziyyət Bakının tezliklə azad olunmasını zəruri edirdi.

Sentyabr ayının ortalarında Azərbaycan-Osmanlı hərbi qüvvələri Bakını yadellilərdən azad etdilər. Bakının azad edilməsi Tələt paşanın Berlində apardığı danışıqlara müsbət təsir göstərdi. Danışıqlar nəticəsində sentyabrın 23-də imzalanan Almaniya-Osmanlı protokoluna görə, Almaniya 27 avqust sazişindən imtina edir, Azərbaycanı diplomatik cəhətdən tanıyacağını bildirir, onun müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınacağına yardım göstərəcəyini vəd edirdi. Türkiyə isə Sovet Rusiyası Azərbaycanın müstəqilliyini tanıyacağı halda, öz qoşunlarını Brest sülhü üzrə müəyyən edilmiş sərhədlərə çəkəcəyini öhdəsinə götürürdü.

1918-ci ilin payızında Almaniya- Türkiyə bloku məğlub oldu. Məğlubiyyət ərəfəsində Azərbaycan Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula gedən Əlimərdan bəy Topçubaşov oktyabr ayında Türkiyənin rəsmi dairələri ilə bir sıra görüşlər keçirdi. Oktyabrın 30-da yalnız Türkiyə üçün deyil, Azərbaycan üçün də son dərəcə ağır olan Mudros barışığı (1918) imzalandı. Barışığa görə, Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli idi. Türkiyənin nəzarəti altında olan Cənubi Qafqaz dəmir yolu müttəfiqlərin nəzarətinə verildi. Türkiyə, eyni zamanda, Bakının müttəfiqlər tərəfindən işğal edilməsinə etiraz etməməli idi. Noyabrın 4-də Əlimərdan bəy Topçubaşov Mudros barışığının Azərbaycana aid maddələri ilə bağlı Türkiyə Xarici İşlər Nazirliyinə etiraz notası verdi.

Mudros barışığına əsasən, 1918-ci il noyabrın 17-də ingilis generalı U. Tomsonun başçılıq etdiyi müttəfiq qoşunları Bakıya daxil oldular. Bundan az əvvəl isə Azərbaycan hökuməti ABŞ prezidenti V.Vilsona, öz fəaliyyətini yenicə bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciəti qəbul etdi. Müttəfiqlərin müdaxiləsi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Bakıdakı vəziyyətlə yaxından tanış olduqdan sonra rus və erməni milli şuralarının ciddi səylərinə baxmayaraq, general U.Tomson bildirdi ki, Britaniya komandanlığı Azərbaycan hökumətinə və onun baş nazirinə böyük hörmət bəsləyir, Xoyski "Bakıda ən bacarıqlı adamlardan biridir" və yeni koalisiya hökuməti təşkil edilənə qədər onun hökuməti ölkədə yeganə təsirli hakimiyyət olaraq qalır.

(ardı gələn sayımızda)

İqtisad elminin inkişafına böyük töhfələr vermiş elm və təhsil ocağı

(əvvəli 5-ci səhifədə)

Ancaq 1993-cü il iyun ayının 15-də ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə qayıdışı ölkəmizin ictimai-iqtisadi və siyasi həyatının bütün sahələrində olduğu kimi, İqtisadiyyat İnstitutunun həyatına da öz müsbət təsirini göstərmişdir. Ulu öndərimizin 1997-ci ilin 31 yanvarında Prezident Sarayında Elmlər Akademiyasının rəhbərləri, həqiqi və müxbir üzvləri, EA institutlarının direktorları, aparıcı alimləri ilə görüşü akademiya əməkdaşlarının elmimizin sabahına inamını artırdı. Onun 15 may 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verilmişdir.

Ulu öndər Heydər Əliyevin elmin inkişafına və elm adamlarına göstərdiyi qayğının nəticəsidir ki, ikinci dəfə ölkə rəhbərliyinə gəldiyi 1993-cü ildən sonra az müddət ərzində İqtisadiyyat İnstitutunda 1988-1992-ci illərdə yaranmış böhranlı vəziyyət aradan qaldırılmış, onun elmi istiqaməti, quruluşu və kadr potensialının tərkibi bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dəyişdirilib təkmilləşdirilmiş, bir sıra MDB ölkələrinin İqtisadiyyat institutları ilə əvvəlki əlaqələr bərpa edilmiş, onların bəziləri ilə birlikdə elmi-tədqiqat işləri aparılmasına başlanmışdır. **1993-2003-cü illərdə institutumuzun əməkdaşları bütün qüvvələrini səfərbər edərək, keçid iqtisadiyyatı mərhələsində Azərbaycanın müstəqil milli iqtisadiyyatının formalaşdırılması və inkişafı, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yüksəldilməsinin həllinə yönəldilmiş kompleks sosial-iqtisadi və demoqrafik inkişaf problemləri, o cümlədən qloballaşma şəraitində dünyada baş verən ictimai-iqtisadi və sosial-demoqrafik dəyişikliklər nəzərə alınmaqla, Azərbaycanda ictimai-təkrar istehsalın nəzəri-metodoloji və konseptual əsasları; əhali sakinliyi, demoqrafiya, məşğulluq, əhali miqrasiyası və sosial siyasətin konseptual əsasları və əsas istiqamətləri; respublikanın müxtəlif regionlarında məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və təbii sərvətlərdən kompleks istifadə edilməsi; elmi-texniki kadr potensialının formalaşdırılması və ondan səmərəli istifadə edilməsi; aqrar münasibərlərin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması və s. tədqiq etmişlər.** Eyni zamanda, 1993-2000-ci illərdə Azərbaycan EA Rəyasət Heyəti ilə Ukrayna EA Rəyasət Heyətinin qərarlarına əsasən, Azərbaycanın və Ukraynanın iqtisadçı-demoqraf alimlərinin birgə iştirakı ilə "Müasir mərhələdə əhali sakinliyinin sosial-iqtisadi problemləri" mövzusunda kollektiv tədqiqat işi yerinə yetirilmişdir. Bu illərdə İqtisadiyyat İnstitutunun alimlərinin, o cümlədən Ş.M.Muradovun, A.A.Nadirovun və A.Q.Gözəlovanın ən mühüm uğurlarından biri də Azərbaycanda və xarici ölkələrdə böyük tirajla çap olunmuş və geniş əks-səda tapmış fundamental tədqiqat əsərlərinin siyahısının gündən-günə artması idi.

Ümummilli lider Heydər Əliyevin 28 dekabr 1998-ci il və 23 iyun 2003-cü il tarixi sərəncamlarına əsasən, respublikamızda ilk dəfə olaraq professor Ş.Muradovun elmi rəhbərliyi və bilavasitə iştirakı ilə "Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası"; "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" və "Azərbaycan məşğulluq strategiyası" (2006-2015-ci illər) işlənib hazırlanmış və ölkə rəhbəri İlham Əliyev tərəfindən təsdiq edilmişdir.

Ulu öndərimiz Heydər Əliyevin yolunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 15 il ərzində (2003-2018-ci illərdə) isə İqtisadiyyat İnstitutunun əməkdaşları onun tərəfindən irəli sürülmüş "neft kapitalını insan kapitalına çevirək" ideyasına və təşəbbüsünə müvafiq işlənib hazırlanmış "2009-2015-ci illərdə Azərbaycan Respublikasında elmin inkişafı üzrə milli strategiya"da qarşıya qoyulmuş vəzifələri rəhbər tutaraq, "Qloballaşma şəraitində Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafının sosial-iqtisadi və demoqrafik problemləri"; "Azərbaycanın müstəqil milli iqtisadiyyatının formalaşmasının sosial-iqtisadi problemlərinin tədqiqi: makroiqtisadi və regional problemləri" istiqaməti üzrə mərhələlərlə 2003-2005-ci illərdə 5 problem və 10 mövzu; 2006-2010-cu illərdə 5 problem və 9 mövzu; 2011-2013-cü illərdə 4 problem və 13 mövzu; 2014-2015-ci illərdə 4 problem və 12 mövzu; 2017-2018-ci illərdə isə "Azərbaycan Respublikasında postneft iqtisadiyyatı quruculuğunun sosial-iqtisadi problemləri" istiqaməti üzrə 4 problem və 18 mövzu tədqiq etmişlər. Həmin illərdə institutun əməkdaşları, eyni zamanda, bir sıra dövlət və hökumət tapşırıqlarının yerinə yetirilməsində iştirak etmişlər. Bunların arasında "2003-2007-ci və sonrakı illərdə Azərbaycanın rəsmi statistikasının təkmilləşdirilməsinə dair Dövlət Proqramı"; Azərbaycan Respublikasının Milli Ensiklopediyasının xüsusi "Azərbaycan" cildi; "Milli iqtisadiyyat"ın "Yol xəritəsi"nin hazırlanması və sair vardır. İnstitutun əməkdaşları həmin illərdə respublikanın dövlət və hökumət orqanlarına 100-dən artıq təklif və tövsiyələr təqdim etmiş, ölkəmizdə və xaricdə 100-dən çox monoqrafiya, kitab və dərsliklər yazıb nəşr etdirmişlər.

Bütünlükdə götürüldükdə İqtisadiyyat İnstitutunda fəaliyyət göstərdiyi 60 il ərzində iqtisad elminin və ölkə iqtisadiyyatının inkişafı üzrə 690-dan çox məruzə, təklif və tövsiyələr hazırlanıb dövlət və hökumət orqanlarına, ayrı-ayrı nazirlik, şirkət və birliklərə təqdim edilmiş; 11144,6 çap vərəqi həcmində, 7958 adda elmi əsər, o cümlədən 5938,6 çap vərəqi həcmində, 406 adda monoqrafiya, dərslik və kitablar, 5206,0 çap vərəqi həcmində, 7552 adda elmi məqalələr yazılıb dünyanın bir çox ölkələrinin nüfuzlu nəşriyyatlarında çap edilmişdir.

Keçən əsrin 60-cı illərinin ikinci yarısında və 70-ci illərin əvvəllərindən etibarən İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərmiş Dissertasiya Şurasında 900 nəfərdən çox elmi dərəcəsi olan iqtisadçı alim, o cümlədən 80 nəfər iqtisadiyyat üzrə elmlər doktoru və 820 nəfər fəlsəfə doktoru hazırlanmışdır. Onların 450 nəfərdən çoxu keçmiş SSRİ-nin müxtəlif regionlarından (Rusiya, Ukrayna, Ermənistan, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və s.) və xarici ölkələrdən (Türkiyə, İran, İraq, Yəmən, Əlcəzair və s.) olan vətəndaşların payına düşür. Həmin kadrların hazırlanmasında institutun sabiq direktorları ak. Ə.Ə.Mahmudovun, müxbir üzvləri A.K.Ələsgərovun, Ş.M.Muradovun, akademiklər A.A.Nadirov və Z.Ə.Səmədzadənin, xüsusilə də i.e.d, prof. M.M.Allahverdiyevin müstəsna xidmətləri vardır. Onların hər biri 50-100 nəfərdən çox elmlər doktorları və namizədləri hazırlamışlar.

AMEA-nın İqtisadiyyat İnstitutunda hazırlanmış elmlər doktorları və iqtisadiyyat üzrə fəlsəfə doktorlarının bir çoxu respublikanın Prezident Administrasiyasında, Nazirlər Kabinetində, Milli Məclisin aparatında və sair dövlət və hökumət orqanlarında, habelə ölkənin bir sıra ali məktəblərində məsul vəzifələrdə çalışırlar. Onların xeyli bir qismi isə hazırda xarici ölkələrdə, o cümlədən Rusiya, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan, Gürcüstan, Ermənistan, Ukrayna respublikalarında, İran İslam Respublikasında, İraq, İsrail, Yəmən və sair ölkələrdə çalışırlar. Fəaliyyət göstərdiyi dövrdə İqtisadiyyat İnstitutunda dünyanın və MDB-nin bir çox iqtisadiyyat yönümlü institutları ilə birlikdə 50-dən çox elmi forumlar keçirilmiş və institutun alimləri həmin ölkələrdə keçirilmiş elmi forumlarda 200-dən çox məruzə və çıxışlar etmişlər.

Hazırda institutda 181 əməkdaş çalışır. Onların 115 nəfərini elmi işçilər, 20 nəfərini elmlər doktorları (onlardan 7 nəfəri institutda əvəzçiliklə işləyənlərdir), 52 nəfərini isə iqtisadiyyat üzrə fəlsəfə doktorları təşkil edir. Bu, kəmiyyət baxımından institut fəaliyyət göstərdiyi 60 il ərzində ən yüksək göstəricidir. Yarandığı 1958-ci ildə institutda cəmi 47 nəfər əməkdaş, o cümlədən 38 nəfər elmi işçi və 18 nəfər elmlər namizədi çalışmışdırsa, hazırda onların sayı müvafiq surətdə 181, 75 və 55 nəfəri ötüb keçmişdir. Bu da həmin dövrlə müqayisədə müvafiq surətdə 3,5; 3,1 və 2,9 dəfə çox deməkdir. 1960-cı ildə institutda cəmi iki nəfər (əvəzçiliklə) elmlər doktorları çalışmışdısa, indi onların sayı əvəzçiliklə birlikdə 20 nəfərə gəlib çatmışdır.

Hazırda institutda 89 nəfər doktoranturada təhsil alır. İnstitutun nəzdində 4 ixtisas şifrəsini özünə birləşdirən elmlər və fəlsəfə doktorluğu üzrə Dissertasiya Şurası fəaliyyət göstərir. 2014-cü ilin aprel ayında İqtisadiyyat İnstitutunun rəhbərliyi dəyişdirilərək möhkəmləndirilmiş və onun direktoru vəzifəsinə iqtisad elmləri doktoru, professor Nazim Müzəffərli (İmanov) gətirilmiş və institutun həyatında yaxşılığa doğru xeyli müsbət irəliləmələr baş vermişdir. Hazırda bu müsbət dəyişikliklər davam etdirilməkdədir. İnstitutun quruluşunda da qismən dəyişiklik edilərək, onun fəaliyyətinə xeyli yenilik gətirə biləcək üç yeni şöbə - "İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir"; "İqtisadiyyatın dövlət tənzimlənməsinin metodoloji və ekonometrik problemləri" və "İqtisadi tədqiqatların riyazi təminatı" şöbələri yaradılmışdır. Hər üç şöbənin rəhbərliyi və onun tərkibi yüksək peşəkar iqtisadçı alimlər hesabına möhkəmləndirilmişdir. Nəhayət, hazırda AMEA-nın İqtisadiyyat İnstitutu prof. N.Müzəffərlinin rəhbərliyi ilə respublikanın müxtəlif dövlət qurumları tərəfindən hazırlanmış müqavilələrin, proqramların və layihələrin ekspertizası ilə də ciddi məşğul olan bir elm mərkəzinə çevrilmişdir. İndi AMEA-nın İqtisadiyyat İnstitutu təkcə Azərbaycan iqtisadiyyatı üçün deyil, eyni zamanda, dünya iqtisadiyyatı və iqtisad elmi üçün əhəmiyyəti olan iqtisadiyyatın dövlət tənzimlənməsinin sosial-iqtisadi təsirlərinin ölçülməsi istiqamətlərində tədqiqatlar aparır. Son illərdə instituta xeyli sayda istedadlı və böyük gələcəyi olan gənclər işə qəbul edilmiş və institutda çalışan istedadlı gənclərin də xeyli hissəsi vəzifə karyeralarında irəli çəkilmiş və bu iş davam etdirilməkdədir. Bütün bunlar onu deməyə əsas verir ki, yaxın gələcəkdə institutun elmi kadr potensialı gənc nəslin hesabına daha da inkişaf edib möhkəmlənəcək və onlar ölkəmizin iqtisad elminə böyük töhfələr verəcəklər.

"Respublika" qəzeti,
18 oktyabr 2018-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ PROBLEMLƏRİNİN HƏLLİNƏ İNNOVASİYA DƏSTƏYİ: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR

2011-ci ildən bəri Azərbaycan iqtisadiyyatının inkişafı yeni mərhələyə - innovasiya yönümlü inkişafa istiqamətlənmişdir. Dünya təcrübəsində bu, özünü tam doğrultmuş və heç bir alternativi yoxdur.
Heç də təsadüfi deyildir ki, Dünya İqtisadi Forumunun ekspertləri Azərbaycanın sürətli inkişafını hiss edərək, bu qənaətə gəlmişlər ki, yaxın gələcəkdə (2025-ci ildə) Azərbaycan yüksək gəlirli innovasiyalı ölkələr sırasına çatacaqdır.

Hər bir ölkə iqtisadi problemlərlə üzləşir. Bu, ölkənin qüdrətindən, inkişaf səviyyəsindən, milli mentalitetindən, ölkənin yerləşdiyi regionun xüsusiyyətlərindən, yeraltı və yerüstü resursların bolluğundan və bu kimi yüzlərlə amillərdən asılıdır.
Dövlətlər üzləşdiyi sosial-iqtisadi problemləri özləri həll etməyə çalışırlar. Mövcud problemlər geniş təhlil edilərək, dövlət səviyyəsində iqtisadi, sosial siyasət işlənib hazırlanır. Bu siyasətin həyata keçirilməsi üçün inkişaf strategiyası qəbul edilir. Ən vacib sosial-iqtisadi problemlərin həlli üçün dövlət proqramları işlənilir. Dövlət proqramlarında problemlərin həlli hərtərəfli müəyyən edilir, görüləcək tədbirlər, onların yerinə yetirilməsinə məsul olan subyektlər, o cümlədən fiziki şəxslər, işlərin yerinə yetirilməsi üçün maliyyələşdirmə mənbələri və s. əhatə edilir. Bu haqda geniş fikir mübadiləsi aparmaq, eləcə də ölkə iqtisadiyyatında sosial-iqtisadi problemlərin həllində innovasiyanın rolu, tətbiqi məsələlərinə aydınlıq gətirmək üçün Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki Albert Tağıyevə müraciət etdik.

- Albert müəllim, əvvəlcə istərdik Azərbaycanda dövlət səviyyəsində olan iqtisadi problemlərin mahiyyəti, əmələ gəlmə səbəbləri, geniş təhlili və həlli üzrə işlənilmiş dövlət siyasətinin həyata keçirilməsinə innovasiya dəstəyinin necə verilməsindən danışasınız.

- Dövlət proqramlarının yerinə yetirilməsi bir növ direktiv xarakter daşıyır. Hal-hazırda ölkəmizdə yaranan iqtisadi problemlərə nümunə olaraq aşağıdakıları göstərmək olar:
- qeyri-neft sektorunun zəif inkişafı;
- işsizliyin mövcudluğu;
- regionların qeyri-bərabər inkişafı;
- əhalinin məşğulluğunun lazımi səviyyədə olmaması;
- ixrac yönümlü məhsulların az olması;
- ərzaq təhlükəsizliyi problemi və s.

Azərbaycan dövləti bu problemlərin həlli üçün məlum strategiyalar hazırlamış və dövlət proqramları qəbul etmişdir.
Apardığımız araşdırmalar göstərir ki, 2011-ci ildən başlayaraq Azərbaycan iqtisadiyyatı özünün inkişafında yeni mərhələyə - innovasiya yönümlü iqtisadi inkişafa istiqamətlənmişdir.
Bunu Azərbaycanda texnoparkların və onun müxtəlif tiplərinin yaradılması üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2011-ci ildən bəri imzaladığı fərman və sərəncamlardan aydın görmək olar. Qeyd edilən fərman və sərəncamlarda Azərbaycan iqtisadiyyatının üzləşdiyi problemlərin həllinə innovasiya dəstəyinin verilməsi ölkədə texnoparkların yaradılması yolu ilə həyata keçirilir. Bunu daha dərindən dərk etmək üçün cədvəl 1-ə diqqət yetirək.
Hələlik Azərbaycanda problemlərin həllinə innovasiya dəstəyinin verilməsi texnoparklardan istifadə mexanizminə əsaslanır. Odur ki, burada texnoparkların özlərinin inkişafı barədə qısa məlumat verək.
Dünya təcrübəsində isbat edilmişdir ki, texnoparklar inkişaf edərək, özünün 3-cü nəsil mərhələsinə gəlib çatmışdır. Artıq elə bir dövr yetişmişdir ki, texnoparklar öz fəaliyyət dairələrinə və miqyaslarına görə çox sürətli inkişaf etmişlər. Məsələn, Böyük Britaniyanın Kembric Universitetinin texnoparkı universitet də daxil olmaqla 200-ə qədər elmi-tədqiqat institutu və 360-dan çox firma ilə birlikdə elmi-tədqiqat fəaliyyətilə məşğul olur.
Adətən, texnoparkların əksəriyyəti universitetlərin nəzdində yaradılırdı. Hal-hazırda isə texnoparklar öz ərazisində universitetlər yaradır. Məsələn, Yaponiyanın Skuba texnopolisində üç universitet yaradılmışdır ki, onlar kompüter texnologiyaları mərkəzi, bioelektronika və tibb üzrə tədqiqat müəssisələri, 420-dən çox tətbiq firma və kampaniyası ilə birgə fəaliyyət göstərərək, Yaponiyada innovasiyanı inkişaf etdirirlər.
Çin Xalq Respublikasının Xaynan əyalətində yerləşən Nanxu texnoparkında 12 ali təhsil müəssisəsi, 30 elmi-tədqiqat institutu, 210 elmi-tədqiqat laboratoriyası və 220 yeni yüksək texnologiyalar əsasında işləyən müəssisə birgə fəaliyyət göstərir.

- Sizcə, ölkəmizdə sosial-iqtisadi problemləri daha uğurlu və səmərəli həll etmək üçün ən əsas vəzifə nədən ibarətdir?

- Mənim fikrimcə, ən vacib məsələ innovasiya fəallığının gücləndirilməsidir. Azərbaycanın Böyük İqtisadi Ensiklopediyasında (III cild, s. 10) innovasiya fəallığı aşağıdakı kimi izah edilir. İnnovasiya fəallığı - məhsul, texnoloji və təşkilati idarəetmə yeniliklərinin yaradılması, istehsalda mənimsənilməsi, bazara daxil olması üzrə məqsədyönlü fəaliyyət, iqtisadi artımın və təşkilati idarəetmə yeniliklərinin zəruri şərti. Buna görə də dövlətin və müəssisənin innovasiya siyasətinin reallaşmasında mərkəzi yer tutur. İnnovasiya fəallığının səviyyəsi, bütövlükdə, milli iqtisadiyyatın inkişaf sürətini və ayrı-ayrı sahə və müəssisələrin rəqabət qabiliyyətini müəyyən edir. İnkişaf etmiş ölkələrdə innovasiya fəallığının ən mühüm göstəricisi elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə (ETTKİ), istehsal investisiyalarına yönəldilən milli məsrəflərin həcminin tədricən yaxşılaşdırılmasıdır. Digər göstəricilərə aiddir: patent və lisenziyaların miqdarı (hər 1000 nəfərə düşən), xarici ticarətin saldosu, məhsulun resurstutumu və elmtutumu və s.
Son zamanlar makro səviyyədə ölkənin innovasiya fəallığını qiymətləndirmək üçün daha iki göstəricidən istifadə edilir. Bunlardan birincisi tədqiqat və inkişafa çəkilən investisiyanın ümumi daxili məhsuldakı xüsusi çəkisidir. Bu göstəriciyə görə, dünya ölkələrində Cənubi Koreya (4,3%), İsrail (4,2%) və Avropa ölkələrindən Finlandiya (3,6%) öndə gedir. Azərbaycanda isə bu göstərici 0,2%-dir.
İkinci ümumiləşdirilmiş göstərici ölkə əhalisinin 1 milyon nəfərinə düşən elmi-texniki işçilərin sayıdır. Bu göstərici də digər ölkələrə nisbətən Cənubi Koreyada ən yüksəkdir (8706 nəfər).
Fikrimizcə, müəssisə əməkdaşlarının innovasiya fəallığını onların işçi kateqoriyalarına görə fərqləndirmək olar. Müəssisənin mühəndis-texniki işçilərinin innovasiya fəallığı yeni innovasiya ideyasının yaradılmasında əks olunduğu halda, müəssisənin rəhbərliyinin və idarəetmə kadrlarının innovasiya fəallığı yeni ideyanın həyata keçirilməsinə şərait yaratmaqla özünü göstərir.
Makro səviyyədə innovasiya fəallığı həm də cəmiyyətin mənəvi vəziyyəti, onun milli innovasiya doktrinasını, elmi-texniki inkişaf strategiyasını ifadə etmək, innovasiya siyasətinin istiqamətlərini və formalarını müəyyənləşdirmək, resursları onun reallaşdırılmasına cəmləşdirmək qabiliyyəti ilə şərtlənir. İnnovasiya fəallığı inkişaf etmiş bazar və rəqabət mühiti olmadan mümkün deyildir. Sahə və müəssisə səviyyəsində innovasiya fəallığı innovasiya strategiyasının seçilməsinin düzgünlüyündən və innovasiya fəallığının idarə edilməsinin keyfiyyətindən, istehsal sistemlərinin çevikliyindən, resursların istehsal edilməsində manevretmə qabiliyyətindən, idarəetmənin yüksək səviyyəsindən aşağı səviyyəyə bir sıra funksiyaların verilməsindən, təşəbbüskarlığın və daxili sahibkarlığın inkişafından, innovasiya mədəniyyətinin formalaşmasından həlledici dərəcədə asılıdır.

- Albert müəllim, sizcə sahibkarlar üçün innovasiyalara aid olan mühüm stimulu necə yaratmaq mümkündür?

- Mən hesab edirəm ki, sahibkarlar üçün innovasiyalara aid olan mühüm stimul sahibkarlıq rentasının alınması, zəruri şərt isə güclü hüquqi müdafiə mexanizminin olmasıdır. İnnovasiya menecmentinin uğuru müəyyən prinsiplərə riayət olunmasını tələb edir. Elmi və texniki yenilik daim dəyişən bazar konyukturu şəraitində müəssisənin müştərilərinin tələbatlarının daha tam ödənilməsinə yönəldilməlidir. Hər bir istehsal olunan məhsulu sabit dəyişikliklərin obyekti kimi nəzərdən keçirmək lazımdır. Buna görə də ilk mərhələdə maraq doğuran kiçik layihələrdə vəsaitlərin qoyulmasına üstünlük verilməlidir. Bunların yerinə yetirilməsi üçün tamamilə müstəqil bölmələrin yaradılması lazımdır. Rəqibləri yalnız qarşı tərəf kimi yox, həm də ideyaların mümkün mənbələri kimi öyrənmək zəruridir.
Şəxsi yaradıcılıq təşəbbüsü innovasiya prosesinin başlanğıcına təkan verən qüvvədir. Yenilikçiyə dəstək olmadan innovasiya fəallığı qeyri-mümkündür. Lakin təşəbbüsə çoxsaylı şəxsi-təşkilati maneələr zidd gəlir, buna görə də çox zaman təşəbbüskarlıq onun reallaşdırılması müddətindən üstün olan vaxt ərzində tanınır. Bu maneələrin aradan qaldırılmasının səmərəli forması iri müəssisələr çərçivəsində "yerində sayan" adını almış, "daxili sahibkarlıq" kimi tanınmış daxili strukturların yaradılması ola bilər.
İnnovasiya fəallığının inkişaf etmiş ölkələrdə digər geniş yayılmış formaları korporasiyanın "xarici resursları" və bir qayda olaraq, yenilikçilərin özlərinin təsis etdiyi müstəqil vençurlardır. Risk - innovasiya sahibkarlığının inkişafı vençur kapitalının və əqli mülkiyyətin təsirli hüquqi müdafiə mexanizminin olmasını tələb edir.
İqtisadi problemlərin həllinə innovasiya dəstəyinin daha güclü və təsirli olması üçün ölkədə innovasiya fəallığının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir.

- Mümkünsə innovasiya fəallığı haqqında daha geniş məlumat verərdiniz.

- Innovasiya fəallığı üç şərtin qovşuğunda inkişaf edir: birincisi - əhalinin innovasiya ilə məşğul olmaq üçün potensial intellektual imkanlarının mövcud olması; **ikincisi** – bu insanların innovasiya fəaliyyətilə məşğul olmaq istəklərinin, arzularının olması; **üçüncüsü** – ölkədə innovasiya mühitinin olması. Əgər bunlardan hər hansı biri olmasa, onda innovasiya fəallığını lazimi səviyyədə inkişaf etdirmək olmaz. Bunlardan birincisi ölkə əhalisinin innovasiya üzrə potensial intellektual səviyyəsinin mütəmadi olaraq yüksəldilməsini tələb edir. Buna makro, mikro və mezo səviyyədə əhalinin mütəmadi olaraq peşə, ixtisas və innovasiya sahələri üzrə geniş maariflendirmə işlərinin həyata keçirilməsi yolu ilə nail oluna bilər.
İkinci şərtə innovasiya fəaliyyətilə məşğul olmaq üçün istənilən səviyyədə qeyd edilən fəaliyyətin motivləşdirilməsi yolu ilə nail olmaq olar.
Üçüncü şərt ölkədə daha geniş iqtisadi, sosial, siyasi, texniki və bu kimi işlərin təşkilini tələb edir. Üçüncü şərtə nail olmaq olduqca mürəkkəb bir işdir. Buna ölkədə innovasiya sahəsi üzrə güclü hüquqi bazanın olması, innovasiya fəaliyyətinin ölkədə mövcud vəziyyət qiymətləndirilərək, iqtisadi siyasətin tərkib hissəsi olan vahid innovasiya siyasətinin işlənilməsi, innovasiya sahibkarlığının və yüksək texnologiyaların ölkədə inkişaf etdirilməsi, bəzi mürəkkəb problemlərin həlli üzrə dövlət proqramlarının qəbul edilməsi, təhsil-elm-istehsalat-bazar inteqrasiya zəncirinin hərtərəfli inkişaf etdirilməsi və bu kimi məsələlərin həlli yolu ilə nail olunur.
İnnovasiya fəallığının yüksəldilməsində insan amilinin rolu olduqca yüksəkdir. Xüsusilə, yaradıcılıq qabiliyyəti yüksək olan mütəxəssislərə və innovatorlara iri korporasiyalarda geniş imkanlar yaradılır ki, onlar korporasiyanın inkişafında öz imkanlarından tam istifadə edə bilsinlər. Məsələn, ABŞ-ın İBM şirkətində belə işçilər üçün "sərbəst işçi" statusu müəyyən edilmişdir. Bu statusa malik olan işçi ən yüksək əməkhaqqı ilə işə qəbul edilir və 5 il müddətində korporasiyaların rəhbərliyi tərəfindən ona heç bir göstəriş verilmir, heç bir tələb edilmir. 5 il müddətində o müstəqil surətdə korporasiya fəaliyyətinin bütün cəhətlərini öyrənir, təhlil edir və bu əsasda korporasiyanın inkişafı üzrə korporasiya rəhbərliyini heyrətə salan yenilik təklifi verir. İBM korporasiyasında belə işçilərin sayı 45 nəfərdən artıqdır.

-Sizcə, innovasiya fəallığı nədən asılıdır?

- Hesab edirəm ki, innovasiya fəallığı birbaşa ölkədə innovasiya fəaliyyətinin gücləndirilməsilə əlaqədardır. İnnovasiya fəaliyyəti meqafəaliyyət olmaqla çox geniş sahələri əhatə edir. Əgər innovasiyaya birmənalı baxılarsa, onda innovasiya fəaliyyətinə aşağıdakı kimi tərif vermək olar:
İnnovasiya fəaliyyəti innovasiya prosesinin bütün mərhələlərində və innovasiyanın infrastrukturunda yerinə yetirilən fəaliyyətlərin məcmusudur.
İnnovasiya fəaliyyəti müəlliflərin, innovatorların, qrupların, kütlələrin fəaliyyət subyekti kimi maddi-praktiki fəaliyyətdir. İnnovasiya fəaliyyətini həyata keçirən insanların bir çoxu təşkilatlarda fəaliyyət göstərərək, innovasiya prosesinin müxtəlif mərhələlərində yerinə yetirilən işlərlə məşğuldurlar. Bəziləri yenilik ideyası və layihələrin müəllifləridir, ikincilər direktor və menecer kimi innovasiya layihəsinin təşkilatçılarıdır; üçüncülər marketoloqlar kimi yeniliyə olan tələbatı öyrənib proqnozlaşdıranlardır; onun bazarda nümayiş etdirilməsi üsullarını müəyyən edənlərdir; dördüncülər bu yeniliyin hazırlanması üçün texniki sərhədləri ("nou-hau") işləyənlərdir; beşincilər yeniliklərin icraçılarıdır.
Yaxşı olardı ki, innovasiya fəaliyyətinin gücləndirilməsi üzrə dövlət proqramları hazırlansın. Bu proqramlarda innovasiya fəaliyyətinin gücləndirilməsi üçün zəruri olan aşağıdakıların həyata keçirilməsi əhatə edilməlidir:
- elmtutumlu texnologiyaların mənimsənilməsi;
- innovasiya sahibkarlığının inkişaf etdirilməsi;
- innovasiyanın sürətləndirilməsinin əsas hərəkətverici qüvvəsi olan yüksək texnologiyaların mənimsənilməsi;
- xarici ölkələrin qabaqcıl texnologiyalarının ölkəyə cəlb edilməsi və s.

Bir daha innovasiya dəstəyinə ehtiyacı olan problemlərin həllinə qayıdaq.
Azərbaycanda həllinin innovasiya dəstəyinə ehtiyacı olan problemlərdən biri ixracyönümlü məhsulların çeşidlərinin artırılmasıdır. Bu problemin həllində ölkəmizdə yaradılan yüksək texnologiyalar parkları ilə əməkdaşlıq üçün dünyanın transmilli korporasiyalarının cəlb edilməsi olduqca önəmli olar.
Fikrimizcə, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsinə innovasiya dəstəyinin verilməsi istiqaməti kimi qida məhsullarının əkin sahələrində biotexnologiyaların tətbiqi ola bilər. Bu sahədə Hindistanın təcrübəsinin öyrənilməsi əhəmiyyətli nəticələr verər.
İnnovasiya dəstəyinə ehtiyacı olan ən əsas problemlərdən digəri regionların inkişafı ilə əlaqədardır. Demək olar ki, dünya texnoparklarının 45 faizi regionlarda yaradılıb və onların problemləri ilə məşğuldurlar.
Azərbaycanda da regionların inkişafına innovasiya dəstəyinin verilməsi üzrə müəyyən işlər görülmüşdür. Bu sahədə professor T.H.Əliyevin L.B.Babayevlə birlikdə hazırladıqları "Regional İnnovasiya Proqramının tərtibi üzrə metodik tövsiyələr" dəyərli bir vəsaitdir və bundan müvəffəqiyyətlə istifadə edilə bilər.
İndiyədək innovasiya dəstəyinin texnoparklar tərəfindən göstərildiyi qeyd edilmişdir. Lakin innovasiya prosesinin digər infrastrukturları tərəfindən də innovasiya dəstəyi göstərilə bilər. Bu sahədə innovasiya prosesinin infrastrukturu olan iri sahibkarlıq qurumlarının təşkilati-hüquqi formalarının yaradılmasından da istifadə mümkündür.
Yaxın gələcəkdə innovasiyanın ölkəmizdə inkişafı ilə əlaqədar olaraq innovasiyanın infrastrukturu olan, elmi-texniki problemlərin həllinə yönəldilmiş iri firmaların təşkilati-hüquqi formaları: maliyyə-sənaye qrupları, konsersiumlar, qlobal korporasiyalar, alyanslar, şəbəkə ittifaqları, qeyri-rəsmi, yaxud müqaviləyə əsaslanan ittifaq, investisiya paylarına əsaslanan ittifaq kimi qurumlar yaranacaqdır və onlar bir sıra problemlərin həllinə güclü innovasiya dəstəyi verəcəklər.
- Albert müəllim, maraqlı müsahibəyə görə təşəkkür edirik, çox sağ olun.

"İqtisadiyyat"

S.s.	Texnoparkın adı	Dəstək verdiyi iqtisadi problemlər	Mənbə
1	Balaxanı Sənaye Parkı	Ölkədə təkrar istehsalı inkişaf etdirmək və bu sahəyə marağı olan potensial sahibkarlara və investorlara əlverişli şərait yaratmaq	Azərbaycan Respublikası Prezidentinin 4 may 2011-ci il tarixli Balaxanı Eko-Sənaye Parkının yaradılması üzrə sərəncamından çıxarış
2	Sumqayıt Sənaye Parkı	Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq; bu sahədə sahibkarlığı dəstəkləmək; qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq kimi iqtisadi problemlərin həyata keçirilməsi	Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Sumqayıt Sənaye Parkının yaradılması üzrə fərmanından çıxarış
3	"Qızıl Üçbucaq" Yüksək Texnologiyalar Parkı	Qabaqcıl avadanlıqlar, iqtisadi güzəştlər və biznes xidmətindən ibarət olan, biznes üçün səmərəli mühiti təmin edərək, Azərbaycanda və regionda yüksək texnologiyalara əsaslanan iqtisadiyyata töhfə vermək	Azərbaycan Respublikası Prezidentinin "Qızıl Üçbucaq" texnoparkının təməlini qoymaq məqsədilə 2012-ci ilin noyabr ayında imzaladığı fərmandan çıxarış
4	Mingəçevir Yüksək Texnologiyalar Parkı	Ölkədə qeyri-neft sektorunun inkişafını təmin etmək; bu sahədə sahibkarlığa dəstək vermək; müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalını təşkil etmək; əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq	Mingəçevir şəhərində Yüksək Texnologiyalar Parkının yaradılması üzrə Azərbaycan Respublikası Prezidentinin 26 fevral 2015-ci il tarixli 481 nömrəli fərmanından çıxarış
5	Neftçala Sənaye Məhəlləsi	Sənaye sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahələrində məşğulluğunun artırılması	Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2015-ci il tarixlisərəncamından çıxarış

Gəmiçilik və "Columbia Shipmanagement" şirkəti birgə müəssisə yaradır

ASCO-nun mətbuat katibliyindən bildirilib ki, bununla bağlı gəmiçiliyin sədri Rauf Vəliyev və "Columbia Shipmanagement"in sədri Henrix Şüller arasında anlaşma memorandumu imzalanıb.

Yeni birgə müəssisə vasitəsilə ikitərəfli əməkdaşlıq daha da güclənəcək. Belə ki, müəssisə beynəlxalq sularda böyükhəcmli tankerlərin istismarı ilə bağlı təcrübə mübadiləsi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin dənizçilərinə və ofis heyətinə təlimlərin keçirilməsi və yeni xarici layihələrdə gəmiçiliyin iştirakının təmin edilməsi üçün əsaslı zəmin yaradacaq. Tərəflər arasında birgə müəssisənin yaradılması üçün danışıqların davam etdirilməsi, tələb olunan texniki-iqtisadi sənədlərin hazırlanması ilə bağlı razılıq əldə edilib.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Columbia Shipmanagement" arasında sıx əməkdaşlıq münasibətləri mövcuddur.

Elə bu əməkdaşlığın nəticəsi olaraq hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin dənizçiləri və Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri sözügedən beynəlxalq şirkətin gəmilərində təcrübə keçirlər.

Birgə həyata keçirilən bu layihədən gəmiçiliyin il ərzində ümumilikdə 20-dən çox dənizçisi faydalanacaq.

SOCAR Bakı-Tbilisi-Qars dəmir yolu ilə ilk konteyner nəqlini həyata keçirib

SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi "Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner" ilə birgə karbamidin Türkmənistanın Marı zavodundan Türkiyəyə çatdırılması üzrə ilk sınaq alışını və nəqlini həyata keçirib.

"ADY Konteyner" MMC-dən bildirilib ki, nəql Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yüklərin vaqonlardan konteynerlərə yenidən yüklənməsi yolu ilə reallaşdırılıb. Ardından yüklənmiş konteynerlər Bakı-Tbilisi-Qars dəmir yolu xətti vasitəsilə Türkiyənin üç müxtəlif istiqamətinə göndərilib və müvəffəqiyyətlə alıcıya çatdırılıb.

Bu konteyner daşımalarının həyata keçirilməsi layihəyə qatılan ölkələrin logistik imkanlarını, layihəyə Mərkəzi Asiya regionunun ölkələrinin, o cümlədən Türkmənistanın cəlb olunduğunu, eləcə də konteyner daşımalarından istifadənin üstünlüyünü bir daha nümayiş etdirib.

Gələcəkdə nəqliyyat xərclərinə qənaət edilməsi və Azərbaycan karbamidinin dünyanın hər yerinə "qapıdan qapıya" metodu əsasında çatdırılması məqsədilə "SOCAR Carbamide" şirkətinin istehsal etdiyi karbamidin də nəql olunması planlaşdırılır.

"BP Azerbaijan" İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə yeni layihəyə başlayır

"BP Azerbaijan" şirkəti İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) ilə elektron monitorinq və qiymətləndirmə infrastrukturunun modernləşdirilməsi üçün yeni layihəyə başlayır.

Şirkətdən bildirilib ki, "İİTKM-in elektron monitorinq və qiymətləndirmə infrastrukturunun modernləşdirilməsi" layihəsinin məqsədi qabaqcıl proqram təminatının hazırlanması vasitəsilə mərkəzin elektron monitorinq və qiymətləndirmə infrastrukturunun modernləşdirilməsinə dəstək olmaqdır. Yeni proqram təminatı Azərbaycanda sosial və iqtisadi inkişaf üçün Strateji Yol xəritələri çərçivəsində hökumət tərəfindən həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi üçün istifadə ediləcək. Bu proqram təminatı İİTKM-in 47 dövlət orqanından, o cümlədən nazirliklərdən, agentliklərdən və komitələrdən müntəzəm olaraq aldığı iqtisadi məlumatları effektiv şəkildə emal etməsinə yardım edəcək.

Bu layihə oktyabrın 15-də "BP Azerbaijan" və İİTKM arasında qarşılıqlı anlaşma memorandumunun imzalanmasından sonra başlayıb. Memorandum "BP Azerbaijan" və İİTKM-in Azərbaycanda müxtəlif sahələrdə davamlı inkişafa dəstək olmaq öhdəliklərinə uyğun olan layihələri nəzərdən keçirmək və yerinə yetirmək üçün tərəflər arasında əsas prinsipləri müəyyənləşdirir.

Layihənin ümumi dəyəri 204 min manat təşkil edir və müddəti 6 aydır.

Türkmənistan və Avropa Komissiyası Transxəzər qaz kəmərinin tikintisi məsələlərini müzakirə ediblər

Türkmənistan nümayəndə heyəti Avropa Komissiyasının təmsilçiləri ilə Transxəzər qaz kəmərinin tikintisi məsələlərini müzakirə edib.

Brüsseldə keçirilən müzakirələr zamanı Türkmənistan nümayəndə heyəti Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviçlə danışıqlar aparıb, həmçinin Avropa Komissiyasının enerji məsələləri üzrə baş direktorluğunun nümayəndələri ilə işgüzar görüş keçirib. Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Muradgəldi Meredov oktyabrın 22-də təşkil olunan videoselektor müşavirəsində səfərin yekunları barədə Türkmənistanın dövlət başçısına məlumat verib.

M.Meredov bildirib ki, aparılan danışıqlarda Türkmənistan ilə Avropa İttifaqı (Aİ) arasında energetika sahəsində əməkdaşlıq, tərəfdaşlığın hüquqi bazasının modernləşdirilməsi, Transxəzər qaz kəmərinin tikintisi layihəsinin reallaşdırılması məsələləri müzakirə edilib. Görüşdə Xəzər İnkişaf Korporasiyasının (CDC) fəaliyyət prinsiplərinin bundan sonra da təkmilləşdirilməsi, bu enerji layihəsinin həyata keçirilməsi üzrə işçi qrupunun danışıqlarının davamı, o cümlədən iqtisadi, ekoloji və kommersiya məsələlərinə də toxunulub.

Görüşlərdə Aİ nümayəndələri Transxəzər qaz kəmərinin tikintisinə və Türkmənistan təbii qazının Avropa bazarlarına tədarükünə böyük maraq göstəriblər.

Avropa İttifaqının danışıqlarda iştirak edən nümayəndələri Prezident Qurbanqulu Berdimənəmmədovun həm Türkmənistanın milli maraqlarına cavab verməsi, həm də qitənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından mühüm hesab etdiyi bu layihənin reallaşdırılmasına sərmayələrin cəlb edilməsində kömək etməyə hazır olduqlarını bildiriblər.

Transxəzər qaz kəməri layihəsi ildə 30 milyard kubmetr həcmində Türkmənistan təbii qazını ən azı 30 il müddətinə Xəzər dənizinin Türkmənistan sahillərindən ötürülməklə Avropa bazarlarına tədarükünü nəzərdə tutur.

"Siemens Gamesa" ilə alternativ və bərpaolunan enerji sahəsində əməkdaşlıq imkanları müzakirə olunub

Energetika Nazirliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin (ABOEMDA) iştirakı və "Siemens Gamesa" şirkətinin nümayəndələri ilə birgə Azərbaycanın alternativ və bərpaolunan enerji sahəsində əməkdaşlıq imkanları mövzusunda "dəyirmi masa" keçirilib.

Nazirlikdən bildirilib ki, energetika nazirinin müavini Samir Vəliyev Azərbaycanın "Siemens" şirkəti ilə uzunmüddətli əməkdaşlıq əlaqələri və ölkənin enerji sektorunda bir sıra layihələrdə iştirakı barədə danışıb.

O, "Siemens Gamesa" şirkətinin bərpaolunan enerji sahəsindəki təcrübəsinin gələcək əməkdaşlıq üçün imkanlar yaratdığını bildirib.

"Siemens Gamesa" şirkətinin nümayəndəsi Viktoriya Maguire Toft Azərbaycanla bərpaolunan enerji mənbələrindən istifadə sahəsində qanunvericilik, maliyyələşmə məsələləri və külək turbinlərinin quraşdırılması üzrə əməkdaşlığa maraqlarını ifadə edib.

Tədbirdə şirkətin fəaliyyət istiqamətləri, külək və günəş enerjisi sahəsində təcrübəsi barədə məlumatlar verilib. Bildirilib ki, şirkətin külək enerjisi üzrə qoyuluş gücü 87 GVT, illik gəliri isə 11 milyard avrodur. Şirkət quruda, dənizdə külək turbinlərinin quraşdırılması, texniki xidmət və külək parklarının yaradılması üzrə fəaliyyət göstərir.

ABOEMDA-nın sədr müavini Cəmil Məlikov isə Azərbaycanda bərpaolunan enerji mənbələrinin inkişafının, Dayanıqlı və təmiz enerjinin təmin edilməsinin əsas hədəflərdən olduğunu deyib. Onun sözlərinə görə, bərpaolunan enerji mənbələrinin inkişafına qoyuluş güclərinin artırılması hesabına nail olmaq mümkündür və bu məqsədlə 2030-cu ilə qoyuluş gücünün 3461 meqavata çatdırılması planlaşdırılır.

Sonra ölkənin bərpa olunan enerji potensialına dair təqdimatlar dinlənilib. Bərpaolunan enerji mənbələri üzrə yeni layihələr, mövcud qanunvericilik və institusional vəziyyət, bu sahənin investorlar üçün cəlbediciliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər nəzərdən keçirilib.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi rebrendinq edib

Beynəlxalq sularda da fəaliyyət göstərərək üçrəngli bayrağımızı öz gəmilərində şərəflə dalğalandıran, müxtəlif yerli və xarici tərəfdaşlarla əməkdaşlıq edən, şanlı tarixinin 160 illiyinə yekun vuran Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi yeni dövrə yeni brendlə qədəm qoyub.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin mətbuat katibliyindən bildirilib ki, bundan sonra şirkət "ASCO" adı ilə fəaliyyət göstərəcək. Rebrendinq layihəsi yalnız adın dəyişdirilməsi ilə bitmir. Belə ki, layihə çərçivəsində şirkətin loqosu və rəsmi internet saytı da yenilənib.

Brendinq elementlərinə yeni nəfəs, müasir və eyni zamanda, milli kolorit gətirən şirkətin rəsmi internet səhifəsi də yeni dizayn və yeni "www.asco.az" adı ilə fəaliyyətə başlayıb. Yeni sayt Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərəcək. Saytda ASCO-nun struktur bölmələri, donanmaların tərkibi, xidmətlərlə bağlı dolğun məlumatlarla yanaşı, fəaliyyət üzrə maliyyə və davamlı inkişaf hesabatları da ictimaiyyətə təqdim olunur. Daha zəngin bir dizayna malik olan sayt mövcud və potensial müştərilərlə interaktiv ünsiyyət qurmaq imkanı da təqdim edir.

Bunun üçün saytda "Bizə yazın" bölməsi yaradılıb. ASCO-nun dünyaya açılan qapısı olan yeni saytda şirkətlə bağlı mütəmadi xəbərlər paylaşılacaq. Əsas səhifədə şirkətin 160 illik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən xüsusi fotoqalereya (timeline) da yer alıb. Bu qalereyanın köməkliyi ilə gəmiçiliyin üç əsri əhatə edən tarixinə virtual səyahət etmək mümkündür.

Yeni sayt populyar sosial şəbəkələrə inteqrasiya edilib. Belə ki, bütün səhifələri "Facebook", "Twitter", "Google +" sosial şəbəkələrində paylaşmaq imkanı yaradılıb.

Azərbaycanın media təmsilçilərinin Gürcüstana səfəri uğurlu nəticələrlə yekunlaşıb

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının təmsilçiləri oktyabrın 17-dən 20-dək Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində işgüzar səfərdə olublar.

Fondun "Azərbaycan Xalq Cümhuriyyəti ili» ilə bağlı hazırladığı Tədbirlər Planı çərçivəsində gerçəkləşən səfər media nümayəndələrini Cümhuriyyət yaradıcılarının dövlətçilik fəaliyyəti və zəngin ideya irsi ilə yaxından tanış etmək, habelə bu ölkənin kütləvi informasiya vasitələri ilə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək məqsədi daşıyıb.

Səfərdə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Cəmaləddin Quliyev, «Yeni Azərbaycan» qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov, «Ədalət» qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Aqil Abbas, «İki Sahil» qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, «Səs» qəzetinin baş redaktoru Bəhruz Quliyev, «Bakı-Xəbər» qəzetinin baş redaktoru Aydın Quliyev, «525-ci qəzet»in baş redaktoru Rəşad Məcid, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, «Yeni Müsavat» qəzetinin baş redaktoru Rauf Arifoğlu, «Palitra» qəzetinin baş redaktoru Namiq Əliyev, «Bizim Yol» qəzetinin baş redaktoru Bahəddin Həziyev, «Trend» İnformasiya Agentliyinin baş direktor müavini Arzu Nağıyev, Fondun Müşahidə Şurasının üzvü Əvəz Rüstəmov, habelə aparıcı məsləhətçiləri Samir Mustafayev və Mirsəid Ağayev iştirak ediblər.

Səfərin ilk günü – oktyabrın 18-də media təmsilçiləri və Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Dursun Həsənov Tbilisi şəhərinin mərkəzində yerləşən Heydər Əliyev Parkında ümummilli lider Heydər Əliyevin abidəsini ehtiramla ziyarət edib, önünə çiçək dəstələri düzüblər.

Media təmsilçiləri sonra Tbilisidəki Botanika bağına gələrək, köhnə müsəlman qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olmuş Həsən bəy Ağayevin, Fətəli Xan Xoyskinin, eləcə də görkəmli dramaturq Mirzə Fətəli Axundzadənin məzarlarını ziyarət ediblər.

Səfər çərçivəsində media nümayəndələri daha sonra Tbilisi şəhərində 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin «İstiqlal Bəyannaməsi»nin elan edildiyi tarixi bina ilə tanış olublar. Azərbaycanlı jurnalistlərə məlumat verilib ki, bu tarixi bina Çar Rusiyası dövründə Qafqaz canişinliyinə məxsus olub və hazırda «Gənclər evi» kimi fəaliyyət göstərir.

Bildirilib ki, 1918-ci il fevralın 23-də binada Gürcüstan, Azərbaycan və Ermənistan təmsilçilərindən ibarət Zaqafqaziya Seymi çağırılıb. Seymdə müsəlmanlar say etibarilə üstünlük təşkil ediblər. Mayın 27-də Seymin azərbaycanlı nümayəndələri müvəqqəti Milli Şuranın yaradıldığını elan ediblər və Şuraya sədrlik Məhəmməd Əmin Rəsulzadəyə həvalə olunub. Bir gün sonra Milli Şuranın 26 üzvünün iştirak etdiyi ilk iclasda «İstiqlal Bəyannaməsi» qəbul olunub. Beləliklə, 1918-ci il mayın 28-də Tbilisinin mərkəzində yerləşən bu tarixi binada Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması rəsmən elan edilib. Yeni yaranmış hökumət və Milli Şura iyunun 16-dək, yəni Gəncəyə köçürülənədək həmin binada fəaliyyət göstərib.

Həmin gün Azərbaycanın media təmsilçiləri və Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Dursun Həsənov Gürcüstan parlamentində olublar. Fondun icraçı direktoru Vüqar Səfərli, eləcə də Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov Azərbaycanın media nümayəndələrinin Tbilisiyə səfərinin məqsədi barədə məlumat veriblər.

Gürcüstanın GUAM Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, Gürcüstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvü Giorgi Mosidze bildirib ki, ölkəsi Azərbaycan ilə əlaqələrin bütün sahələrdə inkişafında maraqlıdır.

Oktyabrın 19-da media təmsilçiləri səfərin təşkilinə hərtərəfli dəstək verən Azərbaycanın Gürcüstandakı səfirliyində olublar.

Səfir Dursun Həsənov qonaqları səmimi salamlayaraq onlara səfirliyin diplomatik missiyası, habelə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətləri barədə ətraflı məlumat verib. Səfir D.Həsənov deyib: «Gürcüstanın ali məktəblərində təhsil alan yerli tələbələrin əksəriyyətinin təhsil haqqı Azərbaycan dövləti tərəfindən ödənilir. Azərbaycan Təhsil Nazirliyi Gürcüstandakı Azərbaycan dilli məktəblərin dərslik problemlərinin həlli məqsədilə bu ölkəyə hər il minlərlə dərs vəsaiti göndərir. Azərbaycan dövlətinin dəstəyi ilə Gürcüstanda bir neçə məktəb tikilib, onlarla məktəb əsaslı təmir olunaraq soydaşlarımızın ixtiyarına verilib».

Fondun icraçı direktoru Vüqar Səfərli öz növbəsində Azərbaycan jurnalistlərinin Gürcüstana səfərinin məqsədi barədə məlumat verib, habelə səfərin təşkilinə verdiyi dəstəyə görə səfir D.Həsənova və səfirliyin əməkdaşlarına təşəkkürünü bildirib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov və səfirliyin birinci katibi Vüqar Mustafayev çıxış edərək, Gürcüstandakı soydaşlarımızı narahat edən bəzi məsələlərin – xüsusilə də Azərbaycan dilində məktəblərin sayının azalması və müəllim kadrların hazırlığı sahəsində bəzi problemlərin olduğunu vurğulayıblar.

Görüşün sonunda icraçı direktor Vüqar Səfərli Fondun xatirə hədiyyəsini səfir Dursun Həsənova təqdim edərək, Azərbaycanın Gürcüstandakı səfirliyi ilə ölkənin aparıcı media qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün bundan sonra da bütün zəruri tədbirlərin həyata keçiriləcəyini vurğulayıb.

Azərbaycanın media təmsilçiləri daha sonra Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyini ziyarət ediblər.

Fondun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov və b. çıxış edərək Gürcüstan-Azərbaycan münasibətlərinin bütün sahələrdə dinamik inkişaf etdiyini bildirib, habelə soydaşlarımızı qayğılandıran məsələlərlə bağlı fikir və rəylərini bölüşüblər.

Gürcüstan Demokratik Hərəkatının təmsilçisi, politoloq L.Çixeidze, Gürcüstan Strateji Araşdırmalar İnstitunun siyasi məsləhətçisi G.Vasadze, Gürcüstan-Azərbaycan ictimai və mədəni əlaqələr fondunun rəhbəri T.Txilava, politloq S.Kopadze və b. Azərbaycanla Gürcüstan arasında ictimai-siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər. Görüşün sonunda Fondun icraçı direktoru Vuqar Səfərli Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinə Fondun xatirə hədiyyəsini təqdim edib.

Gürcüstanda səfərdə olan media təmsilçilərinin oktyabrın 19-da Marneuli rayonunda yaşayan soydaşlarımızla görüşündə Fondun icraçı direktoru Vüqar Səfərli soydaşlarımızı salamlayaraq, bu səfərin məhz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar hazırlanmış Tədbirlər Planı çərçivəsində reallaşdırıldığını söyləyib.

Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov isə bildirib ki, Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarımızın qayğıları ilə hər zaman yaxından maraqlanır və həllinə dəstək verir.

Marneulidə yaşayan azərbaycanlılar tədbirdə çıxış edərək, Azərbaycan dilində orta məktəblərin sayının ildən-ilə azalması, dərsliklərin çatışmazlığı, ixtisaslı pedaqoqların azlığı kimi çətinliklərlə üzləşdiklərini vurğulayıblar.

Səfərin üçüncü günü – oktyabrın 20-də Azərbaycanın media təmsilçiləri Tbilisi şəhərində görkəmli ictimai-siyasi xadim, yazıçı Nəriman Nərimanovun ev-muzeyini ziyarət ediblər.

Həmin gün nümayəndə heyətinin Gürcüstana səfəri başa çatıb.

Təhsil müəssisələrində Dayanıqlı İnkişaf Məqsədlərinin təbliği

"Azərbaycan İqtisadçılar İttifaqı" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı hesabına "Təhsil müəssisələrində Dayanıqlı İnkişaf Məqsədlərinin təbliği istiqamətində tədbirlərin təşkili" adlı layihənin icrasını davam etdirir.

Təşkilat 19 oktyabr 2018 tarixində ADPU-nun nəznindəki pedaqoji kollecdə tədbir təşkil etmişdi. Tədbirin məqsədi məktəbin şagirdlərini BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və ölkəmizdə bu istiqamətdə aparılan işlərlə tanış etmək, şagirdlərlə Dayanaqlı İnkişaf Məqsədləri mövzusunda maarifləndirici söhbət aparmaq, diskussiya keçirmək idi.

Tədbiri giriş sözü ilə açan layihə eksperti İlham Əhmədov şagirdlərə layihə barədə, layihəyə qrant verən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası barədə, layihənin icraçısı "Azərbaycan İqtisadçılar İttifaqı" İctimai Birliyi barədə qısa məlumat vermiş, daha sonra layihənin mövzusunu şagirdlərin nəzərinə çatdırmışdır.

Layihənin eksperti, ADPU-nun dosenti İlham Əhmədov BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini şagirdlərə şərh etdi, ölkəmizdə bu istiqamətdə aparılan konkret işlər barədə danışdı. Qeyd edildi ki, dünyanın qlobal problemləri bəşəriyyəti daim narahat edir. Bu gün belə problemlər daha da aktuallaşıb. Bu problemlər dünya ictimiyyətinin, o cümlədən BMT və digər beynəlxalq təşkilatların diqqətindədir. Bu problemləri həll etmək üçün müxtəlif inkişaf proqramları hazırlanır və icra edilir. Belə proqramlardan biri də BMT-nin Dayanıqlı İnkişaf proqramıdır. Proqramın 17 əsas məqsədi var.

Məqsəd 1: Hər yerdə yoxsulluğun bütün formalarına son qoymaq; **Məqsəd 2:** Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və daha yaxşı qidalanmaya nail olmaq və Dayanıqlı kənd təsərrüfatını təşviq etmək; **Məqsəd 3:** Yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq; **Məqsəd 4:** Hər kəs üçün inkluziv və keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsili təşviq etmək; **Məqsəd 5:** Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınları səlahiyyətləndirmək; **Məqsəd 6:** Hamıya suyun və kanalizasiya xidmətlərinin əlçatanlığını təmin etmək; **Məqsəd 7:** Hamının sərfəli, etibarlı, Dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək; **Məqsəd 8**: İnklüziv və Dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək; **Məqsəd 9:** Möhkəm infrastruktur yaratmaq, inklüziv və Dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək; **Məqsəd 10:** Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq; **Məqsəd 11:** Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji Dayanıqlılığını təmin etmək; **Məqsəd 12:** Dayanıqlı istehlak və istehsal modellərinə keçidi təmin etmək; **Məqsəd 13**: İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək; **Məqsəd 14:** Okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək; **Məqsəd 15:** Meşələri Dayanıqlı şəkildə idarə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaqların deqradasiyasına son qoyaraq onları bərpa etmək üçün tədbirlər görmək və bioloji müxtəlifliyin itirilməsinin qarşısını almaq; **Məqsəd 16:** Ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək; **Məqsəd 17:** Dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq.

Tədbirin sonunda təhsil işçilərinin şagirdlərlə bu mövzuda aparmalı olduğu söhbətlərin əhəmiyyəti qeyd etdi.

Dünya əhalisinin təxminən yarısı hələ də gündəlik 2 ABŞ dolları məbləğində gəlirlə yaşayır.

Bir çox yerlərdə iş yerinin olması yoxsulluqdan qurtulmaq üçün kifayət etmir. Hədəfə doğru belə yavaş və qeyri-bərabər irəliləyiş bizdən yoxsulluğun aradan qaldırılmasına yönələn iqtisadi və sosial siyasətimizi yenidən gözdən keçirməyi və yenidən formalaşdırmağı tələb edir. Layiqli iş imkanlarının davamlı çatışmazlığı, investisiyaların yetərli səviyyədə olmaması və qeyri-kafi istehlak səviyyəsi demokratik cəmiyyətlərin təməlini təşkil edən sosial həmrəyliyin aşınmasına gətirib çıxarır: tərəqqi hamı üçün ortaq olmalıdır. Keyfiyyətli iş yerlərinin yaradılması 2015-ci ildən sonra hələ uzun müddət, demək olar ki, bütün ölkələrin iqtisadiyyatı üçün əsas problem olaraq qalacaqdır. Dayanıqlı iqtisadi artım cəmiyyətlərdən ətraf mühitə zərər verməməklə, insanların keyfiyyətli işlərə sahib olmasına imkan verərək, iqtisadiyyatı stimullaşdıran şərtləri formalaşdırmağı tələb edir. Bunun üçün, həmçinin bütün əmək qabiliyyətli əhali üçün iş imkanları və layiqli iş şəraiti də zəruridir.

• Qlobal işsizlik səviyyəsi 2007-2017-ci illərdə 170 milyondan 270 milyona yüksəlib. Bunun 75 milyonu gənc qadın və kişilərin payına düşür.

• Təxminən 2,2 milyard insan gündəlik 2 ABŞ dolları səviyyəsində müəyyən olunan yoxsulluq həddindən aşağı gəlirlə yaşayır. Yoxsulluq isə yalnız stabil və yaxşı maaşlı işlər hesabına aradan qaldırıla bilər.

• 2016-2030-cu illər arasında əmək bazarına yeni daxil olan işçi qüvvəsi üçün qlobal səviyyədə 470 milyon iş yeri tələb olunur.

Daha sonra respublikada BMT-nin Dayanıqlı İnkişaf proqramının məqsədlərinə doğru atılan addımlar şagirdlərin nəzərinə çatdırıldı. Tədbirin sonunda təhsil işçilərinin şagirdlərlə bu mövzuda aparmalı olduğu söhbətlərin əhəmiyyəti qeyd edildi.

AİB-in vitse-prezidenti ölkəmizlə əməkdaşlıqdan məmnunluğunu bildirib

"Asiya İnkişaf Bankı (AİB) Azərbaycanın dünya səviyyəsində rəqabətədavamlı və şaxələndirilmiş iqtisadiyyat yaratmaq məqsədilə struktur islahatlarını gücləndirməsinə sadiq qalmasından və dövlət sektorunun səmərəliliyini artırmasından məmnundur. AİB dövlətin iqtisadi islahatlar keçirməsinə dəstəyi artırmağa və ölkənin öz vətəndaşlarının həyatını yaxşılaşdırmaq naminə inkişaf məqsədlərinə nail olmasına kömək etməyə hazırdır".

Bu sözləri oktyabrın 24-də keçirilən mətbuat konfransında AİB-in vitse-prezidenti cənab Vençay Janq deyib. O, bildirib ki, hazırda Azərbaycan üçün 2019-cu ildə başlayacaq 5 illik Ölkə Tərəfdaşlıq Strategiyası (ÖTS) üzərində iş aparılır: "Bu strategiya ölkənin neftdən asılılığını azaltmaq məqsədilə özəl sektorun genişləndirilməsi, dövlət sektorunun daha səmərəli fəaliyyət göstərməsi, ölkə infrastrukturunun, kapital və əmək bazarlarında vəziyyətin yaxşılaşdırılması yolu ilə iqtisadiyyatın şaxələndirilməsinə dəstək olacaq".

"Avropa və Asiya arasındakı strateji yerləşmənin iqtisadi üstünlüklərindən istifadə edə bilmək və şəhər-kənd əlaqələrinin inkişaf etdirilməsinə nail olmaq üçün Azərbaycanın nəqliyyat infrastrukturunu inkişaf etdirmək AİB üçün prioritet olaarq qalır", - deyən V.Janq kənd infrastrukturunun, şəhər infrastrukturu və xidmət sahəsinin inkişafının daha yaxın əməkdaşlıq üçün nəzərdə tutulan potensial sahələrdən olduğunu da bildirmişdir.

Səfər çərçivəsində vitse-prezident, həmçinin Naxçıvan Muxtar Respublikasında AİB tərəfindən dəstəklənən su təchizatı və kanalizasiya layihəsini də ziyarət etmişdir.

Qeyd edək ki, Azərbaycan AİB-ə 1999-cu ildə üzv olduqdan bu günə qədər bank dövlət və özəl sektor kreditləri, zəmanətlər və texniki dəstək qrantları vasitəsilə ölkəyə toplam olaraq 4,9 milyard dollar ayırıb.

"AtaSığorta" ASC yeni tibbi sığorta məhsullarını təqdim edir

Daim müştərilərin məmnuniyyətini düşünən "AtaSığorta" ASC ölkəmizdə mövcud tələbata uyğun olaraq fiziki şəxslər üçün nəzərdə tutulmuş "Səyahət paketi", "Tələbə paketi", "Fiziki şəxslərin sığortası" və "Ailə paketi" adlı yeni tibbi sığorta məhsullarını sığorta sektoruna təqdim edir.

Turizmlə bağlı sığorta məhsuluna tələbatı nəzərə alaraq yeni "Səyahət paketi" məhsulu yaradılmışdır. Bu məhsul ölkə daxilində səyahət edən vətəndaşlar və xaricdən gələn qonaqlar üçün nəzərdə tutulub. "Səyahət paketi" təcili baş verən halların və xəstəliklərin müalicəsinə təminat verir. Tibbi yardıma ehtiyac yaranan zaman bu məhsul ilə sığorta olunanlar ölkəmizin bölgələrində, o cümlədən paytaxtda müalicə olunmaq imkanı qazanırlar.Qiymətlər səyahət günlərinin sayına uyğun olaraq hesablanır.

"Tələbə paketi" yerli və xaricdən ölkəmizə təhsil almaq üçün gələn tələbələr üçün nəzərdə tutulub. Ali təhsil müəssisələri tələbələri üçün bu məhsulu əldə etməklə kiçik bir məbləğ qarşılığında gözlənilməz hadisələr zamanı tibbi yardımla təmin oluna bilərlər.

Həmçinin, vətəndaşların çoxsaylı müraciətləri əsasında fiziki şəxslərin fərdi qaydada sığortalanması üçün "Fiziki şəxslərin sığortası" və ailələr üçün nəzərdə tutulan "Ailə paketi" adlı yeni tibbi sığorta məhsulları hazırlanıb. Hər iki məhsul üzrə bir neçə qiymət təklifi hazırlanmışdır. Qiymətlər təminat verilən risklərin əhatəsindən asılı olaraq dəyişir. Ailə və ya qrup şəklində sığorta olunan zaman sərfəli qiymətlər təklif edilir.

"AtaSığorta" ASC 100-ə yaxın klinika və apteklərlə əməkdaşlıq edir və bu siyahı günü-gündən genişlənir. Sığorta olunanlar müqavilə müddəti ərzində həmin klinikalarda müalicə olunmaq imkanı əldə etmiş olurlar. Həmçinin, sığorta olunanların ailə üzvlərinə əməkdaşlıq edilən klinikalarda sığorta təminatına daxil olmayan xidmətlər üzrə 50%-dək endirimlər tətbiq olunur.

"AtaHolding" şirkətlər qrupuna daxil olan "AtaSığorta" ASC 2004-cü ildən sığorta sektorunda fəaliyyət göstərir. Şirkət 30 milyon manata yaxın aktivlərə malik olmaqla 30 sığorta növü - 26 könüllü və 4 icbari sığorta növü üzrə müştərilərə xidmətlər göstərir.

Məktəblilərin İKT yönümlü peşələrə istiqamətlənməsi üçün tədbirlər

"Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı hesabına "Məktəblilərin İKT yönümlü peşələrə istiqamətlənməsi üçün tədbirlərin keçirilməsi" adlı layihənin icrasını davam etdirir. Təşkilat 22 oktyabr 2018-ci il tarixində ADPU-nun nəznindəki pedaqoji kollecdə tədbir təşkil etmişdi. Tədbirin məqsədi məktəb şagirdləri ilə peşəyönümü işi aparmaq, məktəbin şagirdlərini İKT yönümlü peşələrə istiqamətləndirmək idi.

Layihənin eksperti, ADPU-nun dosenti İlham Əhmədov peşəyönümü işi barədə danışdı. O əvvəlcə şagirdlərdən soruşdu ki, sizlərdən kim öz gələcək peşəsi barədə seçim etmişdir. Bir neçə şagird artıq özlərinə peşə seçdiklərini bildirdilər. Onlar növbə ilə özlərinə hansı peşəni və niyə seçdiyini əsaslandırmağa çalışdılar. Bu məqsədlə indidən hansı tədbirlər gördüklərini bildirdilər. Daha sonra layihə eksperti uşaqlara izah etdi ki, bir sıra peşələr yaxın gələcəkdə əmək bazarından silinəcək, əvəzinə xeyli yeni peşələr yaranacaq. Əmək bazarında gözlənilən bu dəyişiklər texnologiyaların sürətlə inkişaf etməsi ilə əlaqədardır.

Daha sonra tədbirdə layihənin eksperti İradə Əlili peşə seçiminin hər bir gənc üçün taleyüklü məsələ olduğunu qeyd etdi. Tədbirdə qeyd edildi ki, bu gün dünyada minlərlə peşə vardır. Peşələr ümumən 5 növə bölünür: İnsan-təbiət, İnsan-texnika, İnsan-insan, İnsan-işarələr sistemi, İnsan-bədii obraz. Bunlar əsas peşə klasterləridir. Ən əsası insanın özünə uyğun peşə seçimidir. Daha sonra düzgün peşə seçimi aparmaq üçün şagirdlərə tövsiyələr verildi.

Peşə seçimi insanın həyatında verdiyi ən əhəmiyyətli qərarlardan biridir. Peşə təkcə pul qazanmaq, dolanışıq məqsədi ilə seçilmir, bəlkə bunlardan da əhəmiyyətlisi özünü ifadə etmək, özünü doğrultmaq üçün seçilir. Hər birimiz ilk seçimi-mizi ətrafdakı insanlara baxaraq seçirik. Kimsə hansısa peşədə qabiliyyətli olursa, uğur qazanırsa bizim də ilk ağlımıza gələn o peşəni seçmək olur. Ancaq zaman-zaman qərarlarımızı dəyişdiririk.

Düzgün peşə seçimində hər kəs öz yerini və imkanlarını dəqiq bilməlidir. Aydındır ki, hamıda eyni qabiliyyət, eyni maraq və eyni bacarıq ola bilməz. Amma hər kəsdə hər hansı bir sahəyə müəyyən meyil və maraq vardır. Bu amilləri üzə çıxarmaqda peşəyönümünün rolu böyükdür. Bununla yanaşı, gənclərə peşəyə dair məsləhətlər, əmək bazarında real vəziyyət haqqında məlumatlar vermək lazımdır. Çünki bu gün peşə və ixtisas düzgün seçilməzsə, gələcəkdə həmin peşə və ixtisas üzrə işlə təmin olunmaqda problem yaranır ki, bunun nəticəsində işsizlik ortaya çıxır. Bu problem dünyanın bütün ölkələrində mövcuddur.

Düşünülmüş şəkildə fərdi yanaşma, hər bir vətəndaşın maraq və meyillərinə, bacarıqlarına peşə seçmələri son dərəcə əhəmiyyət kəsb edir. Bu vacib işin uğurla həyata keçirilməsi üçün peşə seçiminin müvafiq qurumlar tərəfindən düzgün aparılması xüsusi dəyər kəsb edir. Ona görə də hər bir gənc ilk növbədə iş dünyasının tələblərini və sahibkarların nə istədiklərini, hansı keyfiyyətlərə üstünlük verdiklərini müəyyən etməlidir.

İnformasiya texnologiyalarının, xüsusi ilə süni intellektin inkişafı artıq əmək bazarında ciddi gərginlik yaradır. Bir sıra peşələr artıq tarixin arxivinə yollanılır. Digər tərəfdən yeni-yeni peşələr yaranır. 2020-ci ilə qədər olan müddətdə xeyli yeni peşələr üzrə mütəxəssislərə ehtiyac olacaqdır. Eyni zamanda, bu gün öyrənilən bir sıra peşələrə ehtiyac olmayacaqdır. Xüsusən İKT yönümlü peşələrə ehtiyac ilbəil artacaqdır. Ona görə bu günün məktəb şagirdləri peşə seçərkən bu reallıqları nəzərə almalıdırlar. Məktəb müəllimləri də şagirdlərini əsasən perspektivi olan peşələrə yönləndirməlidirlər.

"Azercell"in Barama Mərkəzi və Yüksək Texnologiyalar Parkı arasında əməkdaşlıq memorandumu imzalanıb

Ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin formalaşmasına yönəlik uğurlu layihələri ilə seçilən "Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi innovativ mühitin inkişaf etdirilməsi üçün bir sıra qlobal təşkilatlar, qurumlar və Qeyri-Hökumət Təşkilatları ilə əməkdaşlıq edir. Mərkəz innovasiyalı iqtisadiyyatın inkişafına, biliklərə əsaslanan iqtisadiyyatın qurulmasına, intellektual biznesin dəstəklənməsinə, iqtisadiyyatımızın və xüsusilə, İKT sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə öz töhfəsini vermək məqsədilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdində fəaliyyət göstərən Yüksək Texnologiyalar Parkı (YTP) ilə əməkdaşlığa başlayır. İki qurum arasında imzalanan memoranduma əsasən, YTP ilə "Azercell" arasında elmi-texniki və tədris sahəsində təcrübə mübadiləsi aparılacaq, əməkdaşların ixtisas səviyyəsinin artırılması məqsədilə təlimlər təşkil ediləcək, elmi-texniki innovasiya sahəsində əməkdaşlıq edilərək, müştərək layihələr hazırlanacaq.

Bundan əlavə, mütəxəssis hazırlığında gənc kadrların motivasiya edilməsi və gənc startapçıların yetişdirilməsi də əməkdaşlığın əsas istiqamətlərindəndir. Yüksək texnologiyalar sektorunda təhsil üçün ən yüksək beynəlxalq standartlarda şəxslərin və institutların inteqrasiyasının genişləndirilməsi, laboratoriyaların yaradılması imkanlarının araşdırılması və mövcud laboratoriyalardan və kadr potensialından birgə istifadə edilməsi, eyni zamanda, birgə proqramlarda internetə çıxış kimi resursları və imkanları ilə tələbələrin təmin edilməsi də memorandumda əksini tapıb.

Məlumat üçün bildirək ki, Yüksək Texnologiyalar Parkı Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 noyabr tarixli Fərmanına əsasən iqtisadiyyatın davamlı inkişafını və rəqabət qabiliyyətinin artırılmasını, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan informasiya və kommunikasiya texnologiyaları sahələrinin genişləndirilməsini, elmi tədqiqatlar aparılmasını və yeni informasiya texnologiyalarının işlənilməsi üzrə müasir komplekslər yaradılmasını təmin etmək məqsədilə yaradılıb.

Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi isə 2009-cu ildə Azərbaycanda biznes innovasiyasını artırmaq, əsasən informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan şirkətləri – startapları dəstəkləyərək, onların şirkətləşməsinə dəstək olmaq məqsədilə fəaliyyətə başlayıb. Mərkəz 2015-ci ildən etibarən ölkənin aparıcı şirkətlərindən biri olan "PAŞA Bank" tərəfindən dəstəklənir.

Bakcell Rəqəmsal Ticarət Qovşağının beynəlxalq konfransında dünyada ilk dəfə olaraq mobil rezidentlik təqdim edib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Rəqəmsal Ticarət Qovşağının beynəlxalq konfransında dünyada ilk dəfə olaraq mobil rezidentlik təqdim edib. Ölkə adından təqdim edilmiş ilk rezidentlik rəsmi olaraq İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycriyə verilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanına əsasən, ölkəmizin bütün dünya üzrə diplomatik nümayəndəlikləri və konsulluqları Azərbaycanda biznes qurmaq arzusunda olan və ya ölkəyə investisiya yatırmaq istəyən bütün xarici vətəndaşlara "Asan İmza" mobil elektron imzanın elektron sertifikatlarını təqdim etmə səlahiyyətlərinə malikdir.

"Bakcell ölkədə innovasiya və rəqəmsallaşmanın tətbiq edilməsinə yönəlmiş bütün dövlət təşəbbüslərinə dəstək göstərməyə hazırdır. Artıq ikinci ildir ki, şirkətimiz Rəqəmsal Ticarət Qovşağının konfransına dəstək göstərir və biz İSESCO-nun baş direktoru cənab Əbdüləziz bin Osman Əl-Tuveycriyə ilk mobil rezidentliyi təqdim etməkdən qürur duyuruq" - deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib. Bakcell şirkətinin sponsorluğu ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) tərəfindən keçirilən "Rəqəmsal Ticarət Qovşağının beynəlxalq konfransı" innovasiya sahəsində ən nüfuzlu tədbirlərdəndir. Konfransda ABŞ, Tailand, Böyük Britaniya, Estoniya, Türkiyə və Mərakeş daxil olmaqla 20-dən artıq ölkədən 200-ə yaxın nümayəndə ilə yanaşı yüksək vəzifəli dövlət məmurları, Azərbaycanda fəaliyyət göstərən ictimai təşkilatlar və dünyanın aparıcı ticarət platformalarının nümayəndələri iştirak edib.

Bu il Rəqəmsal Ticarət Qovşağının əsas mövzusu elektron və mobil rezidentlik proqramının Azərbaycanda və bütün dünyada təqdim edilməsi olub. İştirakçılar elektron və mobil rezidentliyin sahibkarlar üçün güclü bir alətə çevrilməsini müzakirə ediblər.

Tədbirdə həmçinin elektron xidmətlərin ölkələrarası mübadilələrə təsiri və innovativ inkişafın digər aktual mövzuları müzakirə olunub. Həmçinin bildirilib ki, yeni yaradılan www.EnterpriseAzerbaijan.com portalı birbaşa xarici investisiyaların cəlb edilməsi potensialının təkmilləşdirilməsi və investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə yaradılan əlverişli platformadır.

ETİBARSIZDIR

Novruzov Teymur Əlipaşa oğlunun adına Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, 141/438a saylı bağ sahəsinin RX seriyalı, RX 0478410 nömrəli dövlət reyestrindən çıxarışı itdiyi üçün etibarsız sayılsın.

Novruzov Teymur Əlipaşa oğlunun adına Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, ev 438 ünvanına verilmiş RX seriyalı, RX 0507372 nömrəli dövlət reyestrindən çıxarışı itdiyi üçün etibarsız sayılsın.

Akademik Ziyad Səmədzadə professor Şahin Sadıqova əzizi
İRADƏ XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə professor Şahin Sadıqova əzizi
İRADƏ XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ALLAH RƏHMƏT ELƏSİN!

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500